Xalqın qəzeti!
# Xalq qəzeti
№ 276 (30680) 14 dekabr 2024-cü il, şənbə
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Əsrin müqaviləsi: “Azəri–Çıraq–Günəşli”də neft hasilatı 600 milyon tona çatdı




**Dekabrın 13-də BP şirkəti “Əsrin müqaviləsi”nin iştirakçıları – “SOCAR”, “MOL”, “İNPEX”, “ExxonMobil”, “TPAO”, “ITOCHU” və “ONGC Videsh” adından “Azəri–Çıraq–Günəşli” yataqlar blokundan 600 milyonuncu ton neft hasilatını bəyan edib. Ümumilikdə, hasil edilmiş 600 milyon ton neft Bakı – Tbilisi – Ceyhan və Qərb İxrac boru kəmərləri vasitəsilə Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçməklə Səngəçal terminalından birbaşa dünya bazarlarına nəql olunub.**

SOCAR-ın prezidenti Rövşən Nəcəf bu əlamətdar hadisəyə münasibət bildirərkən deyib: “Azəri–Çıraq–Günəşli” yatağından 600 milyon ton neft hasilatına nail olunması Azərbaycanın enerji sektorunun davamlı uğurunu təsdiqləyən əhəmiyyətli nailiyyətdir. Bu əlamətdar hadisə, müasir Azərbaycanın qurucusu ümummilli lider Heydər Əliyevin uzaqgörən rəhbərliyi sayəsində mümkün olmuşdur. Heydər Əliyevin müdrik siyasəti 1994-cü ildə “Əsrin müqaviləsi”nin imzalanmasına yol açaraq ölkəmizin enerji müstəqilliyinin və iqtisadi rifahının təməlini qoymuşdur. AÇG-nin 30 illik yubileyini qeyd edərkən SOCAR bu irsi davam etdirməklə enerji sektorunda yenilik və dayanıqlılığa töhfə verməyə davam edəcək.”

(ardı 7-ci səhifədə)

## “Stajlı ermənipərəst”in siyasi naşılığı

**Ötən əsrin 80-ci illərinin sonlarında Qarabağın dağlıq hissəsində etnik separatizmin başlanmasında dünyanın bir sıra ölkələrindəki, xüsusilə ABŞ və Fransadakı erməni lobbisinin özünəməxsus rol oynadığı heç kəsə sirr deyil.**



Erməni lobbisi hələ SSRİ-nin mövcud olduğu dövrdə daxildəki separatçılığa meyilli şəxslərlə əlbir olaraq, onlarla aktiv iş apararaq, bütövlükdə, bölgədə yaşayan erməniləri mərkəzi hakimiyyətə qarşı çıxmağa, Ermənistanla birləşməyə, “miatsum” planını həyata keçirməyə şirnikləndirirdi. Sovet İttifaqında “yenidənqurma, aşkarlıq siyasəti” adları altında başlanan dağıdıcılıq siyasəti ermənilərin hərəkətə keçmələrinə əlverişli zəmin yaratdı.

1988-ci il fevralın 13-də Xankəndinin mərkəzi meydanında başlanan nümayişlərin nə ilə nəticələndiyi hər hər kəsə aydın olduğu üçün bu barədə təkrar yazmağa ehtiyac duymuruq. Sadəcə, qeyd etmək istəyirik ki, istər Qarabağın Azərbaycandan ayrılması ilə bağlı keçirilən nümayişlər zamanı, istərsə də 1992-ci ilin əvvəlindən iki ölkə arasında başlanan genişmiqyaslı müharibə və sonrakı atəşkəs dövründə haylar daim xaricdəki havadarlarından böyük siyasi, maddi və hərbi dəstək alıblar.

(ardı 5-ci səhifədə)

## Rəsmi İrəvanın soyqırımı cəfəngiyyatı

*BMT Mirzoyanın Azərbaycana qarşı subliminal mesajlarına dəstək verir?*



**“Soyqırım və digər cinayətlərə qarşı erkən xəbərdarlıq və erkən reaksiya üçün beynəlxalq mexanizmlərin effektivliyinin gücləndirilməsi” mövzusundakı “Soyqırımı cinayətinə qarşı” V qlobal forum baş nazir Nikol Paşinyan administrasiyasının köhnə stereotiplərdən uzaq durmaq niyyətində olmadığının növbəti sübutudur. Çünki tədbirin təşkilatçısı hansısa ictimai təşkilat yox, Ermənistanın xarici işlər nazirliyidir.**

Deməli, Nikolun fərqli erməni obrazı formalaşdırmaq yönümlü fəlsəfəsi yalnız görüntüdür. Maraqlıdır, Paşinyan bu görüntünü niyə yaradır? Məsələn, o, nə üçün “Məzlum millət” və onun davamı olan “Ordu millət” düsturlarından imtinanın vacibliyini bildirib, yeni münasibətlər sisteminə qədəm qoyulmasına duyulan ehtiyacdan söz açır? Belə nəticəyə gəlmək mümkündür ki, baş nazirin bu sayaq deyimləri erməni xalqını dünyaya sivil formada təqdim etmək cəhdidir.

*(ardı 4-cü səhifədə)*



## Qarabağ və Şərqi Zəngəzur nura qərq olur

*1000 kilometrlik məsafədə dayanıqlı enerji sistemi yaradılıb*

**Prezident İlham Əliyevin müasir və dayanıqlı enerji strategiyasına uyğun olaraq “AzərEnerji” ASC Qarabağ və Şərqi Zəngəzurda qısa müddətdə – cəmi 4 il ərzində 1000 kilometr uzunluğunda çəkilən yüksəkgərginlikli ötürmə xətlərini 12 yerdə yeni tikilən yarımstansiyalarla zəncirvari şəkildə əlaqələndirib və 2 pilləli 330 və 110 kilovoltluq ikidövrəli dairəvi elektrik təchizatı yaradıb.**

(ardı 7-ci səhifədə)

## Ballıca didərgin övladlarına qucaq açır



**Yolumuz yenidən azadlığına qovuşmuş, dirçəldilən Xocalıyadır. 31 il Xocalı deyəndə gözlərimiz önündə erməni vandallarının törətdiyi əsrin soyqırımı, yer üzündən silinmiş şəhər, dinc insanların kütləvi qətliamı, yeri-göyü inlədən faciələri canlanırdı...**

(ardı 9-cu səhifədə)

## Qapını açmaq hələ tezdir

Səhifə ⇨ 4




## Gürcüstan: Prezident seçkiləri öncəsi “siyasi hərarət” artıb



Səhifə ⇨ 11

## "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 22 oktyabr tarixli 56-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 22 oktyabr tarixli 56-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1** "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157, № 7, maddələr 806, 812, 814, 815, № 8, maddələr 937, 948) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 4-cü hissə üzrə:

1.1.1. 4.9-cu bənddə "352.0.11" rəqəmləri "352.1.11" rəqəmləri ilə əvəz edilsin;

1.1.2. 4.29-cu bənddə "352.0.1-ci" sözləri "352.1.1-ci" sözləri ilə əvəz edilsin;

1.2. 5-ci hissə üzrə:

1.2.1. 5.1-ci bənddən "266.3," rəqəmləri çıxarılsın və həmin bənddə "352.0.1, 352.0.3, 352.0.6, 352.0.11, 352.0.12" rəqəmləri "352.1.1, 352.1.3, 352.1.6, 352.1.11, 352.1.12, 352.2 (nəqliyyat vasitələrindən bayıra hər hansı əşya atılmasına münasibətdə)" sözləri ilə əvəz edilsin;

1.2.2. 5.20-ci bənddə "252-ci maddəsində" sözləri "252, 266.3, 266.4-1 və 272-ci maddələrində" sözləri ilə əvəz edilsin;

1.2.3. 5.23-cü bənd ləğv edilsin;

1.2.4. 5.32-ci bənddə "352.0.4, 352.0.5, 352.0.7 – 352.0.10" rəqəmləri "352.1.4, 352.1.5, 352.1.7 – 352.1.10" rəqəmləri ilə əvəz edilsin;

1.2.5. 5.32-3-cü bənddə "352.0.2-ci, 352.0.8 – 352.0.10-cu" sözləri "352.1.2-ci, 352.1.8 – 352.1.10-cu, 352.2-ci (yollara və yol qurğularına tullantı atılmasına münasibətdə)" sözləri ilə əvəz edilsin;

1.2.6. 5.34-1-ci bənddə "352.0.2-ci" sözləri "352.1.2-ci" sözləri ilə əvəz edilsin;

1.2.7. aşağıdakı məzmunda 5.34-3-cü bənd əlavə edilsin:

"5.34-3. həmin Məcəllənin 352.2-ci (bu Fərmanın 5.32-3-cü bəndi nəzərə alınmaqla) maddəsində (yollara və yol qurğularına tullantı atılmasına münasibətdə) nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində isə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi baxır;".

**2.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200 (Cild I); 2024, № 2, maddə 157, № 6 (I kitab), maddə 649, № 7, maddələr 806, 812, 814, № 8, maddə 948) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2-ci hissə üzrə:

2.1.1. 2.1-ci bənddən "266.3," rəqəmləri çıxarılsın, həmin bənddə "352.0.1, 352.0.3, 352.0.6, 352.0.11, 352.0.12" rəqəmləri "352.1.1, 352.1.3, 352.1.6, 352.1.11, 352.1.12, 352.2 (nəqliyyat vasitələrindən bayıra hər hansı əşya atılmasına münasibətdə)" sözləri ilə, "352.0.2, 352.0.4, 352.0.5, 352.0.7 – 352.0.10" rəqəmləri "352.1.2, 352.1.4, 352.1.5, 352.1.7 – 352.1.10, 352.2 (yollara və yol qurğularına tullantı atılmasına münasibətdə)" sözləri ilə əvəz olunsun və həmin bəndə "252," rəqəmlərindən sonra "266.3, 266.4-1," rəqəmləri əlavə edilsin;

2.1.2. 2.2-ci bənddə "352.0.1, 352.0.3, 352.0.6, 352.0.11, 352.0.12" rəqəmləri "352.1.1, 352.1.3, 352.1.6, 352.1.11, 352.1.12, 352.2 (nəqliyyat vasitələrindən bayıra hər hansı əşya atılmasına münasibətdə)" sözləri ilə, "352.0.2, 352.0.4, 352.0.5, 352.0.7 – 352.0.10" rəqəmləri "352.1.2, 352.1.4, 352.1.5, 352.1.7 – 352.1.10, 352.2 (yollara və yol qurğularına tullantı atılmasına münasibətdə)" sözləri ilə əvəz edilsin;

2.1.3. 2.5-ci və 2.9-cu bəndlərdən "266.3," rəqəmləri çıxarılsın və həmin bəndlərə "252," rəqəmlərindən sonra "266.3, 266.4-1," rəqəmləri əlavə edilsin;

2.2. 19.0-cı bənddə "352.0.4, 352.0.5, 352.0.7 – 352.0.10" rəqəmləri "352.1.4, 352.1.5, 352.1.7 – 352.1.10" rəqəmləri ilə əvəz edilsin;

2.3. 21.0-cı bənddə "352.0.2-ci, 352.0.8 – 352.0.10-cu" sözləri "352.1.2-ci, 352.1.8 – 352.1.10-cu, 352.2-ci (yollara və yol qurğularına tullantı atılmasına münasibətdə)" sözləri ilə əvəz edilsin.

**3** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); 2024, № 4, maddə 381, № 6 (I kitab), maddə 649, № 7, maddələr 812, 814, 815) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1-ci hissəyə "208," rəqəmlərindən sonra "212.4-1," rəqəmləri əlavə edilsin;

3.2. aşağıdakı məzmunda 21-1-ci hissə əlavə edilsin:

"21-1. Məcəllənin 266.3-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

21-1.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından – bu Siyahının 1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

21-1.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi adından – bu Siyahının 19-cu hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.".

**4** Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 22 oktyabr tarixli 56-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 13 dekabr 2024-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1196-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200 (Cild I); 2024, № 2, maddə 157, № 6 (I kitab), maddə 649, № 7, maddələr 806, 812, 814, № 8, maddə 948) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1** 2.1-ci və 2.2-ci bəndlərdə "346-1.1 və 346-1.5-ci maddələrində" sözləri "346-1-ci maddəsində" sözləri ilə əvəz edilsin və həmin bəndlərdən "346-1.2–346-1.4," rəqəmləri çıxarılsın.

**2.** 2.3-cü bənddə "346-1.1, 346-1.5-ci maddələrində" sözləri "346-1-ci maddəsində" sözləri ilə əvəz edilsin.

**3** 2.4-cü bəndə "habelə" sözündən əvvəl "Bakı şəhərinin inzibati ərazisi istisna olmaqla, Məcəllənin 346-1-ci maddəsində," sözləri əlavə olunsun və həmin bənddə ", 324-3-cü və 346-1.2–346-1.4-cü" sözləri "və 324-3-cü" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 13 dekabr 2024-cü il**

## Mərkəzi Seçki Komissiyasının növbəti iclası



**Məzahir Pənahovun sədrliyi ilə 2024-cü il dekabrın 13-də Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.**

Əvvəlcə Komissiyanın dekabrın 9-da keçirilmiş iclasının protokolu təsdiq edilib.

Sonra 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində seçki komissiyalarının səsvermənin nəticələrinə dair yekun protokollarının hazırlanma qaydası və sayı məsələsinə baxılıb. Protokolların Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyənləşdirilmiş nümunələrin forma və mətninə uyğun olaraq, seçki dairələri üzrə bir-bir ardıcıl nömrələnməklə və seriyaları göstərilməklə, 3 nüsxədən ibarət və hər bir nüsxəsi müxtəlif rəngdə karbonlaşdırılmış kağızdan buklet formasında olmaqla, seçki keçirilən bələdiyyələrin sayına uyğun dairə seçki komissiyaları üçün və səsvermə təşkil edilən seçki məntəqələrinin sayına müvafiq olaraq məntəqə seçki komissiyaları üçün hazırlanması qərara alınıb. Qəbul edilmiş qərara əsasən səsvermənin nəticələrinə dair protokollar, habelə aşağı seçki komissiyalarının hər biri üçün 30 ədəd nömrələnməmiş və karbonlaşdırılmamış kağızdan protokollar mətbəə üsulu ilə hazırlanmalıdır.

İclasda daha sonra qarşıdan gələn bələdiyyə seçkilərində Ədalət, Hüquq, Demokratiya Partiyası, Milli Cəbhə Partiyası, Milli Dirçəliş Hərəkatı Partiyası, "Ana Vətən" Partiyası və Böyük Azərbaycan Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması məsələsinə baxılıb. Komissiya sözügedən siyasi partiyalar tərəfindən təqdim olunan şəxslərin səlahiyyətli nümayəndələr kimi qeydə alınmasına qərar verib.

Media subyektlərinin nümayəndələri tərəfindən geniş işıqlandırılan iclasda bələdiyyə seçkilərinə hazırlıqların gedişinə dair müxtəlif məqamlar və statistik göstəricilər də diqqətə çatdırılıb, həmçinin cari məsələlərə baxılıb.

**XQ**

## İrandakı səfirliyimizin konsulluq xidməti bərpa olunur

**Dekabrın 15-dən etibarən Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinin konsulluq şöbəsi öz fəaliyyətini bərpa edəcək.**

Bu barədə Xarici İşlər Nazirliyindən məlumat verilib.

Konsulluq şöbəsinin ünvan və əlaqə vasitələri:

Ünvan: Tehran şəhəri, Pasdaran, Dərrus, Yarməhəmmədi küçəsi, Saqi dalanı 5

Telefon: (+98 21) 22 59 62 90/91

Faks: 22596310

Elektron poçt: tehran@mission.mfa.gov.az

## Hikmət Hacıyev: Azərbaycana qarşı hələ də dezinformasiya siyasəti aparılır




**Qərb və Ermənistan mətbuatı tərəfindən, xüsusi İkinci Qarabağ müharibəsi, antiterror əməliyyatları, eləcə də COP29 ilə bağlı yayımlanan saxta xəbərlər ölkəmizə qarşı mütəmadi olaraq tətbiq edilən dezinformasiya siyasətinin nümunələridir və bu hal hələ də davam edir.**

Bu fikirləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İstanbulda "STRATCOM 24" sammiti çərçivəsində təşkil olunan "Süni intellekt və strateji kommunikasiya: Azərbaycanın gələcəyi üçün bir baxış" mövzusunda panel iclasda səsləndirib.

Azərbaycanın dezinformasiya ilə mübarizədə süni intellektdən istifadə etdiyini bildirən Hikmət Hacıyev vurğulayıb ki, Vətən müharibəsinin bitməsinə baxmayaraq, ölkəmizə qarşı hələ də dezinformasiya siyasəti aparılır. Azərbaycan bu məsələni Ermənistan tərəfi ilə danışıqlar zamanı da diqqətə çatdırır.

Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərə toxunan Hikmət Hacıyev bu əlaqələrin həm ikitərəfli, həm də Türk Dövlətləri Təşkilatı çərçivəsində çoxşaxəli şəkildə davam etdirildiyini deyib və ölkələrimiz arasında süni intellekt sahəsində də əməkdaşlığın olduğunu diqqətə çatdırıb.

## "Divanü Lüğat-it-türk" UNESCO zirvəsində




**Türk dünyasının ən qiymətli kitablarından biri – Mahmud Kaşğarinin məşhur "Divanü Lüğat-it-türk" əsərinin 950 illiyi UNESCO çərçivəsində qeyd olunub.**

UNESCO-nun mənzil-qərargahında Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Özbəkistan, Türkmənistan və Macarıstanın UNESCO üzrə Milli komissiyalarının təşəbbüsü və Türk Mədəniyyəti və İrsi Fondu, eləcə də UNESCO yanında Daimi Nümayəndəliklərin birgə təşkilatçılığı ilə "Dünyanın leksikoqrafiyada xəritələşdirilməsi: "Divanü Lüğat-it-türk"ün 950-ci ildönümü" mövzusunda beynəlxalq konfrans uğurla başa çatıb.

Beynəlxalq konfransa Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi Elman Abdullayev moderatorluq edib.

Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova ortaq Türk mədəni irsinin ən qiymətli əsərlərindən olan "Divanü Lüğat-it türk"ün 950 illik yubileyinin 2024–2025-ci illərdə UNESCO çərçivəsində qeyd olunmasının böyük əhəmiyyət kəsb etdiyindən, bu şah əsərin tarixi mahiyyəti və hazırda mədəniyyətlərarası dialoqda oynadığı rolundan söz açıb.

UNESCO Baş direktorunun Prioritet Afrika və Xarici əlaqələr üzrə müavini Firmin Eduard Matoko konfrans iştirakçılarını salamlayıb. O, Mahmud Kaşğarinin bu əsərinin təkcə Türk dünyası deyil, həm də qlobal mədəni irs üçün böyük əhəmiyyətini vurğulayıb, "Divanü Lüğat-it-Türk"ü türk xalqlarının tarixini əks etdirən ensiklopediya adlandırıb.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru professor Nadir Məmmədli, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Nitq mədəniyyəti və monitorinq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru dosent Vəfa Abdullayeva-Nəbiyeva "Divanü Lüğat-it-türk" əsərinin Azərbaycanda tədqiqi, Azərbaycan dilinə tərcüməsi və nəşri haqqında ətraflı məlumat veriblər.

Sonda UNESCO üzrə Azərbaycan Milli Komissiyasının dəstəyi ilə nəşr edilmiş "Mahmud Kaşğarinin "Divanü Lüğat-it-Türk" kitabının təqdimatı olub.

**XQ**

## "Azərişıq" ASC-nin sədri Gədəbəydə qəbul keçirib

**"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov dekabrın 13-də Gədəbəy Elektrik Şəbəkəsinin inzibati binasında Gədəbəy və Şəmkir rayonlarından olan vətəndaşlarla görüşüb.**

Görüş zamanı qurumun fəaliyyət istiqamətlərinə uyğun olan müvafiq müraciətlər cavablandırılıb, qaldırılan bəzi məsələlərin yerindəcə həlli ilə bağlı tədbirlər görülüb. Həlli araşdırma tələb edən məsələlərlə əlaqədar yazılı müraciət qeydə alınaraq aidiyyəti şöbələrin icraatına göndərilib.

"Azərişıq" ASC-nin həyata keçirdiyi yenidənqurma və maariflənmə tədbirləri kimi regionlarda vətəndaşlarla təşkil olunan görüşlər də abonentlərin dayanıqlı, fasiləsiz elektrik enerjisi ilə təmin olunmasına, həmçinin elektrik enerjisi itkilərinin minimuma endirilməsinə hədəflənib.

**Dekabrın 13-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasında növbəti plenar iclas keçirilib. İclasın 10 məsələdən ibarət gündəliyi qəbul edildikdən sonra Milli Məclisin Sədri Sahibə Qafarova ilk iki məsələnin Prezidentin məktubu ilə Milli Məclisə daxil olduğunu deyib. O, üçüncü oxunuşda müzakirəyə təqdim edilən bu qanun layihələrinin mahiyyətcə bir-birinə yaxın olduğunu söyləyərək, birinci məsələnin "Minatəmizləmə fəaliyyəti haqqında" qanun layihəsi, ikinci məsələnin isə "Yol hərəkəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi olduğunu qeyd edib.**

# Milli Məclisin plenar iclası



Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev "Minatəmizləmə fəaliyyəti haqqında" qanun layihəsinə dair məlumat verib. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov "Yol hərəkəti haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri növbəti məsələnin "Fövqəladə vəziyyət və sosial xarakterli fövqəladə mühit haqqında" və "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi olduğunu bildirib. Qeyd edib ki, layihə uyğunlaşdırma xarakteri daşıyır və müvafiq Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda baxılıb qəbul ediləcək.

Arzu Nağıyev qeyd edib ki, sənəddə adıçəkilən qanunlarda "Dövlət ehtiyatları haqqında" Qanuna uyğunlaşdırmaq məqsədilə dəyişiklik edilməsi təklif olunur. Belə ki, dövlət ehtiyatlarının yaradılması, istifadə edilməsi və bərpası qaydası "Dövlət ehtiyatları haqqında" Qanunla tənzimləndiyi üçün layihədə bu ifadənin "Fövqəladə vəziyyət və sosial xarakterli fövqəladə mühit haqqında" Qanundan çıxarılması təklif olunur. "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Qanuna təklif edilən dəyişiklik isə "Dövlət ehtiyatları haqqında" Qanunda istifadə olunan anlayışlara uyğunlaşdırılması zərurətindən irəli gəlir. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Sahibə Qafarova gündəliyin digər 7 məsələsinin birinci oxunuşda qanun layihələri olduğunu bildirib. O, növbəti iki məsələnin Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olduğunu və mahiyyətcə bir-birinə yaxın olduğunu deyib.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Diplomatik xidmət haqqında" qanun layihəsi (birinci oxunuş) barədə məlumat verib. Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov sənəd barədə rəhbərlik etdiyi komitənin rəyini bildirib. O, "Diplomatik xidmət haqqında" yeni qanun layihəsinin mahiyyəti barədə fikirlərini açıqlayaraq, sənəddə ölkəmizin xaricdə fəaliyyət göstərən diplomatik xidmət orqanı əməkdaşlarının hüquqi vəziyyətinin, maddi təminatının, sosial müdafiəsinin tənzimlənməsi ilə bağlı məsələlərin geniş şəkildə ehtiva edildiyini söyləyib və rəhbərlik etdiyi komitənin qanun layihəsinə dair müsbət rəy verdiyini bildirib.

Sonra Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev Əmək Məcəlləsində, Vergi Məcəlləsində, "Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Sosial sığorta haqqında", "Dövlət qulluğu haqqında", "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin dövlət icbari şəxsi sığortası haqqında" və "Əmək pensiyaları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. O, sənəddə təklif olunan dəyişikliklərin "Diplomatik xidmət haqqında" yeni qanun layihəsinə uyğunlaşdırma məqsədi daşıdığını söyləyib. Hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

İclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə məlumat verib. Müzakirələrdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Komitə sədri Əli Hüseynli Miqrasiya Məcəlləsində və "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Qeyd olunub ki, layihə müasir tələblərə cavab verən yüksəkixtisaslı əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycanda işləməsinin təşviqi, onların bilik və bacarıqlarının ölkənin sosial-iqtisadi inkişafına istiqamətləndirilməsi məqsədilə hazırlanıb.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov məsələ barədə fikirlərini açıqlayaraq qeyd edib ki, Prezidentin müvafiq Sərəncamı əsasında ölkəmizdə yüksəkixtisaslı əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin haqqı ödənilən əmək fəaliyyətinə cəlb edilməsi imkanlarının genişləndirilməsi məqsədilə "Yüksəkixtisaslı Miqrant Proqramı" təsis edilib. O, layihədə miqrantlara güzəştlərin təklif edildiyini, bunun əmək bazarı və müasir iqtisadi inkişafın reallıqları ilə bağlı olduğunu, yüksəkixtisaslı mütəxəssislərin idxalı və ixracının bazar iqtisadiyyatının mahiyyətindən irəli gələn proses olduğunu deyib. Komitə sədri sənəd barədə rəhbərlik etdiyi komitənin müsbət rəy verdiyini söyləyib. Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Komitə sədri Azər Əmiraslanov "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında", "Valyuta tənzimi haqqında", "Xidməti və mülki silah haqqında", "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında", "Notariat haqqında", "İcra məmurları haqqında", "İcra haqqında", "Lotereyalar haqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında" və "Media haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. Qanun layihəsi birinci oxunuşda qəbul olunub.

Komitə sədri Musa Quliyev Əmək Məcəlləsində, Miqrasiya Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Yol hərəkəti haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Tibbi sığorta haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında", "Əmək pensiyaları haqqında", "Təhsil haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "İcbari sığortalar haqqında", "Lisenziyalar və icazələr haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Məşğulluq haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Müvafiq komitələrin sənədlə bağlı rəyləri təqdim edildikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul olunub.

Gündəliyin sonuncu məsələsi olan "Qaz təchizatı haqqında", "Dövlət rüsumu haqqında", "İxrac nəzarəti haqqında", "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında", "Elektroenergetika haqqında" və "Energetika haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı komitə sədri Azər Əmiraslanov məlumat verib. Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov layihə ilə bağlı komitənin müsbət rəyini bildirib. Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Bununla da Milli Məclisin plenar iclası başa çatıb.

# FHN-nin Salyanda seminar-müşavirəsi



**Fövqəladə Hallar Nazirliyi Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyinin təşkilatçılığı ilə Salyan şəhərində "Texniki təhlükəsizlik bizim prioritetimizdir" mövzusunda seminar-müşavirə keçirilib. Seminar-müşavirə təhlükə potensiallı obyektlərin istismarı ilə məşğul olan müxtəlif sənaye müəssisələrində texniki təhlükəsizliyin təmin edilməsinin təhlili və qabaqlayıcı-profilaktik tədbirlərin görülməsi məqsədilə təşkil olunub.**

FHN-in Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyinin rəis müavini İsmayıl Nəsirov çıxışında müəssisələrdə texniki təhlükəsizliyin təmin edilməsinin vacibliyini qeyd edərək bu sahədə qabaqlayıcı-profilaktik tədbirlərin görülməsinin zəruriliyini vurğulayıb.

Daha sonra Agentliyin Azərbaycan Dövlət Əməyin Mühafizəsi və Təhlükəsizlik Texnikası Elmi-Tədqiqat İnstitutunun Analitik informasiya, texniki-normativ sənədlərin işlənməsi və patent şöbəsinin müdiri Vüqar Xəlilov və başqaları sənayedə təhlükəsizliyin sistemli araşdırılması və texniki təhlükəsizliyin təmin olunmasında əsas istiqamətlər barədə tədbir iştirakçılarına ətraflı məlumat verib.

Sonra mövzu ətrafında geniş müzakirə aparılıb, suallar cavablandırılıb.

# Leyla Əliyeva Ruanda Prezidenti ilə görüşüb

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva dekabrın 13-də Kiqali şəhərində Ruanda Respublikasının Prezidenti Pol Kaqame ilə görüşüb.**



Leyla Əliyeva Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Ruanda Prezidentinə çatdırıb.

Görüşdə iki ölkə arasında əlaqələr, o cümlədən, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu ilə müxtəlif sahələrdə əməkdaşlıq imkanları müzakirə olunub. İkitərəfli əlaqələrin genişləndirilməsinin vacibliyini vurğulayan Leyla Əliyeva Afrika ölkələrində təhsil və mədəniyyət sahələrinin inkişafı istiqamətində layihələrin, təhsil üzrə mübadilə proqramlarının həyata keçiriləcəyini, incəsənət nümunələrinin beynəlxalq layihələrdə birgə təqdimatı üzrə əməkdaşlıq ediləcəyini bildirib.

Noyabr ayında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Bakıya səfər etdiyini qeyd edən Ruanda Respublikasının Prezidenti Pol Kaqame tədbirin yüksək səviyyədə təşkil olunduğunu vurğulayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşünü xatırladan Pol Kaqame göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib, ölkəmizdən gözəl təəssüratlarla ayrıldığını deyib.

Pol Kaqame ölkəmizin, o cümlədən, Heydər Əliyev Fondunun dəstəyi ilə Ruandada həyata keçirilən təhsil və mədəniyyət sahəsindəki layihələrə görə təşəkkür edib. Bu günlərdə Ruandada Beynəlxalq Avtomobil Federasiyasının (FIA) Baş Assambleyasının iclasının keçirildiyini qeyd edən Pol Kaqame Azərbaycanın beynəlxalq layihələrə, o cümlədən dünya əhəmiyyətli idman yarışlarına, xüsusilə Formula 1 yarışına uğurla ev sahibliyi etdiyini vurğulayıb. Gələcəkdə Formula 1 yarışının Ruandada da keçiriləcəyinə ümidvar olduğunu deyən Prezident Pol Kaqame bu istiqamətdə Azərbaycan Avtomobil Federasiyasının dəstəyinə böyük önəm verdiyini bildirib.

Görüşdə Ruanda Prezidentinə Heydər Əliyev Fondunun Azərbaycana həsr olunan yeni nəşri – "Azərbaycan. Təbiətin sehrində" kitabı təqdim edilib.

# Heydər Əliyev Fondunun Afrikada təhsil və mədəniyyət layihəsi



**Heydər Əliyev Fondunun "Afrika ölkələrində təhsil və mədəniyyətin inkişafı" layihəsi çərçivəsində Ruandaya səfər edən Fondun vitse-prezidenti Leyla Əliyeva paytaxt Kiqali şəhərinin yaxınlığında yerləşən məktəbdə olub.**

Leyla Əliyeva bu təhsil ocağının rəhbərliyi və şagirdləri ilə görüşüb, məktəbdəki şəraitlə yaxından tanış olub.

Heydər Əliyev Fondunun Ruandada həyata keçirdiyi layihə çərçivəsində 1000-dək şagirdin təhsil aldığı məktəb tədris şəraitinin yaxşılaşdırılması və uşaqların yüksək texnologiyalarla bağlı biliklərə yiyələnmələri məqsədilə kompüterlərlə təchiz olunub. Bununla yanaşı, fond tədris ocağının internetə çıxışını da təmin edib.

Qeyd edək ki, Heydər Əliyev Fondu bu günədək Afrika qitəsi ölkələrində səhiyyə, sosial, təhsil sahələrində bir sıra layihələr həyata keçirib. Bu sırada Heydər Əliyev Fondunun təşəbbüsü ilə beynəlxalq humanitar fəaliyyət çərçivəsində Afrika İrsi Məktəbinin inkişafı üçün maliyyə yardımı, Cibuti Respublikasına səhiyyə sisteminin inkişafı məqsədilə tibbi avadanlıqların verilməsi layihələrini qeyd etmək olar. Gələcəkdə Afrikanın digər ölkələrində də Heydər Əliyev Fondu tərəfindən təhsil və mədəniyyət sahələrində layihələrin həyata keçirilməsi nəzərdə tutulur.

**XQ**

# Kiqali Soyqırımı Memorialını ziyarət



**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Ruandaya səfəri çərçivəsində Kiqali Soyqırımı Memorialını ziyarət edib.**

Leyla Əliyeva Ruanda kütləvi qətliamının qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq Kiqali Soyqırımı Memorialına əklil qoyub, burada nümayiş etdirilən sənədlər və materiallar ilə tanış olub.

Bildirilib ki, 2004-cü ildən fəaliyyət göstərən memorial 1994-cü ildə ruandalıların üzləşdikləri soyqırımının qurbanlarının xatirəsini yaşatmaq, dəhşətli reallıqlara işıq salmaq və faciənin tanıdılması istiqamətində böyük rol oynayır.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət" beynəlxalq kampaniyası çərçivəsində 1992-ci ildə Xocalıda törədilən faciənin dünyada tanıdılması istiqamətində görülmüş işlər barədə məlumat verilib. Soyqırımı kimi cinayətlərin dünyada təkrarlanmaması üçün törədilən faciələrin beynəlxalq miqyasda tanıdılmasının, ədalətin bərqərar olmasının vacibliyi qeyd edilib.

**XQ**

# Rəsmi İrəvanın soyqırımı cəfəngiyyatı

(əvvəli 1-ci səhifədə)

Axı dünya gələcəyə baxır, erməni təxəyyülünün məhsulu olan uydurulmuş keçmişdə ilişib qalmır. Nikol özü də erməni qövmünü gələcəyə baxan obrazında göstərməyə çalışır. Nəzərə alaq ki, Ermənistanın inteqrasiya etmək üçün alışıb-yandığı Qərb aləmi neçə-neçə konfliktləri, ziddiyyətləri unudaraq gələcəyə köklənib və təcrübə göstərir ki, yanaşması uğur gətirib. Paşinyan, sanki, bunu təlqin edir. Amma, o, səmimi deyil və bu, tipik pataloji xəstəlikdən qaynaqlanır.

Qərb isə erməni xəstəliyindən yaxşı xəbərdardır və haylara tayfa kimi yanaşır. Onları sivil dünyanın tərkib hissəsi qismində görmür. Haylar mövcud tendensiyanın dəyişməyəcəyini nəinki anlamır, heç ağıllarına da gətirmirlər. Dərk etmirlər ki, dünyanın əyinlərinə biçdiyi bəlli libas var. Bu libasın rənglərində, ayrı-ayrı elementlərində təxribat, təfriqə naxışları yer alır. O libasda avantürizmə təhrik nişanələri var.

Ona görə Qərb rəsmi İrəvanın hazırda özünü üstüörtülü formada göstərən avantürizminə eyni tərzdə dəstək verir. Yazımızda bu dəstəyin Ermənistan XİN-in təşəbbüsü ilə keçirilmiş sözügedən forumdakı təzahüründən söz açacağıq. Eyni zamanda, tədbirin erməni cəmiyyətində doğurduğu reaksiyanın xüsusiyyətlərinə diqqət yetirəcəyik. Nəzərə alaq ki, bu xüsusiyyətlər həm toplantının anti-Azərbaycan mahiyyəti daşıdığını, həm də ümumən erməni varlığının səmimi şəkildə sivil dəyərlərdən söz açmaq potensialından tam kənar olduğunu, həmin dəyərləri yalnız manipulyasiya predmetinə, siyasi məqsədlərə çevirmə əzmini göstərir.

Beləliklə, əvvəlcə Ermənistan XİN başçısı Ararat Mirzoyanın forumdakı çıxışının bəzi nüanslarını yada salaq. Mirzoyanın dedikləri onu göstərir ki, N.Paşinyan administrasiyası saxta "erməni soyqırımı" məsələsini gündəmdən çıxarmayıb. Haqqında söz açdığımız forumun təşkili bunu söyləməyə əsas verir. Tədbirin adı elə seçilib ki, sanki məqsəd "erməni həqiqətlərini" gündəmə gətirmək yox, ümumən soyqırımı cinayətini bəşəriyyətə qarşı təhdid olaraq qiymətləndirməkdir. Amma Mirzoyanın şikayət ritorikası hər şeyi deyir. O bildirib ki, beynəlxalq ictimaiyyət kütləvi cinayətlərə reaksiyanı, necə deyərlər, iş-işdən keçdikdən sonra verir. Beynəlxalq strukturların reaksiyasının soyqırımı ilə bağlı risk faktorlarına və mövcud vəziyyətə mütənasib olmadığına dair fikirlərini bölüşən erməni XİN rəhbəri onu da deyib ki, ən mühüm risk faktoru nifrətin yayılmasıdır və bu, sonda cinayətə gətirib çıxarır. Tam aydındır ki, Mirzoyanın subliminal ittihamının hədəfi yenə Azərbaycandır.

Qeyd edək ki, N.Paşinyan çox tez-tez Ermənistanın heç bir qonşu dövlətə, o cümlədən, Azərbaycana ərazi iddiasının olmadığını bildirir. Ancaq saxta "soyqırımı" iddiası ilə ərazi iddiası mahiyyətcə bir-birini tamamlayan məsələlərdir. Qərb dünyası birincini əsas götürərək, ikinci üçün meydan verib və bu gün də öz "ampluasındadır". BMT-nin İnsan hüquqları üzrə ali komissarı Volker Turk da həmin amplua çərçivəsində hərəkət edənlərdəndir.

İrəvandakı foruma videomüraciətlə qoşulan cənab Turk eynilə Mirzoyan kimi subliminal mesajlar səsləndirib. Onun konkret nələri vurğulamasından söz açacağıq. Başlıca məqam BMT kimi nüfuzlu təşkilatın erməni avantürizmi üçün alətə çevrilməsidir. Guya, qurumda bilmirlər ki, Ermənistan XİN nə üçün tədbir keçirir? Əlbəttə, gözəl bilirlər. Hətta bilmirlərsə, yenə problem onlarındır. Zəhmət çəkib dünyaya, habelə Cənubi Qafqaz regionuna "makaron deşiyindən" baxmasınlar, daha geniş və ən əsası mütərəqqi aspektdən nəzər salsınlar. Əlbəttə, bunu istəmələri şübhəlidir.

Əlqərəz, V.Turk bildirb ki, cinayətlərin, o cümlədən, soyqırımının qarşısını almağın ən mühüm yolu bütün hökumətlərin və münaqişə tərəflərinin beynəlxalq hüquq normalarına tam riayət etmələridir. Onun fikrincə, dəhşətli cinayətlər səbəbsiz baş vermir. Onlardan əvvəl sistematik ayrı-seçkilik, nifrətin qızışdırılması siyasəti aparılır, irqi, etnik, dini və digər əsaslarda ayrı-seçkiliyə yol verilir, insanların hüquqları kobud şəkildə pozulur.

BMT təmsilçisi dedikləri ilə 1988-ci ilə gedib çıxır. O ilə ki, erməni millətçiləri ən yuxarı səviyyədə anti-Azərbaycan fəaliyyətinə start vermişdilər. O fəaliyyətə ki, sonradan 300 minə yaxın soydaşımızın Qərbi Azərbaycandan deportasiyası, daha sonra isə torpaqlarımızın işğalı, bir milyon vətəndaşımızın qaçqın və məcburi köçkün həyatı yaşamağa məhkumluğu ilə nəticələndi. Görəsən, həmin vaxt nə üçün BMT-nin səsi çıxmadı? Ermənistan 1992-ci ildə dövlət səviyyəsində Xocalı soyqırımını törədəndə bu qurum başda olmaqla, "insanlıq keşikçiləri" niyə susdular? Hansı səbəbdən həmin BMT 30 ilə yaxın müddətdə özünün Azərbaycan torpaqlarının işğalını pisləyən, işğalın durdurulmasına çağırış edən 4 qətnaməsinin icrasına əhəmiyyətsiz yanaşdı? Bu qədər prinsipsizlik olarmı? Bütün bunlardan sonra qurumun İnsan Hüquqları üzrə ali komissarı durub İrəvanda soyqırımı ilə bağlı keçirilmiş tədbirə videomüraciət göndərir. Halbuki, Ermənistanın belə bir mövzuda tədbir keçirməyə haqqının çatıb-çatmadığı öyrənilməli idi!

Bəli, BMT kimi qurumların yüksək rütbəli təmsilçiləri anlamalıdırlar ki, soyqırımı törədənlərin arsızcasına bəşəri cinayətlərə qarşı mübarizə apardıqlarını göstərmələrinə hansısa formada dəstək vermək, onların gələcəkdə eyni əməllərini davam etdirmələrinə imkan yaratmaqdır. Bu gün terror dövləti imicinə malik Ermənistan hələ də bəraət almayıb, Azərbaycan xalqını məruz qoyduğu vandalizm aktlarına görə üzr istəməyib, üstəlik rəsmi İrəvan sülhdən yayınmaq üçün ən müxtəlif vasitələrə əl atır.

*

...Cənab Turk bildirib ki, soyqırımı ilə bağlı potensial risklər aşkar olduqda, dövlətlərin bu cür pozuntuların qarşısını almaq vəzifəsi və hüquqi öhdəliyi var. "Bu gün bir çox dövlətlər öz öhdəliklərini yerinə yetirmirlər. Mən bu mühüm tribunadan bütün ölkələri müharibə qaydalarına riayət etməyə və onların tətbiqini təşviq etməyə, onlara sadiq qalmağa çağırıram", – deyən BMT təmsilçisi hökumətləri beynəlxalq cinayətlərin, insan hüquqlarının pozulması və sui-istifadə hallarının təhqiqatı və təqibi sahəsində əməkdaşlığa çağırıb. Ortada tam mənasız çağırış var.

Yuxarıda vurğuladığımız kimi, saxta soyqırımı iddiası ilə ərazi iddiasının mahiyyətcə bir-birini tamamladığını, birincinin ikincinin reallaşması yolundakı vasitə olduğunu nəzərə alsaq, hazırda öhdəliyini yerinə yetirməli olan tərəf Ermənistan dövlətidir. Rəsmi İrəvan bütün dövlət sənədlərindən qonşu ölkələrə qarşı ərazi iddiasını çıxarmalıdır. Amma bunu etməkdən yayınır, Ermənistan XİN-in keçirdiyi tədbir isə göstərir ki, rəsmi İrəvan köhnə şakərindən geri durmaq fikrində deyil. Belə olan halda, nə üçün BMT onun təşkil etdiyi tədbirə leqallıq obrazı qazandırır? Bu, əsl riyakarlıq deyilmi?



Digər tərəfdən, BMT sözügedən "soyqırımı tədbirinin" Ermənistanda doğurduğu reaksiyaları nəzərə almalıdır. A.Mirzoyanın Azərbaycana ittiham yönümlü subliminal fikirlərini diqqətə çatdırdıq. Bu məqamı tutan yalnız ölkəmizin ictimaiyyəti deyil. Elə Ermənistanın özündə də ölkə XİN-nin düzənlədiyi toplantının gizli hədəfinin Azərbaycan olduğunu dərk edənlər yetərincədir. Ancaq dərketmək hansı mahiyyəti daşıyır, məsələ bundadır.

Bəli, Paşinyana müxalif qüvvələr "soyqırımı forumu"nu qorxaqlıq kimi qələmə verməyə başlayıblar. Məsələn, Ermənistan parlamentinin "Ermənistan" blokundan olan deputatı, ölkənin ikinci prezidenti Robert Koçaryanın oğlu Levon Koçaryan bildirib: "Ararat Mirzoyan İrəvanda keçirilən "Soyqırımı cinayətinə qarşı" forumunda çıxış edərək, soyqırımının ötən il (Azərbaycanın "Artsax"a hücumunu nəzərdə tutaraq) törədildiyini qeyd edib. Həmin Ararat Mirzoyan bir neçə gün əvvəl ATƏT Nazirlər Şurasının Maltada keçirilən iclasında çıxış edərək, Azərbaycanın ötən il törətdiyi soyqırımını, etnik təmizləməni, "Artsax xalqı"nın, soydaşlarımızın geri qaytarılmasının ədalətli tələbini qeyd etməyib. Xarici işlər nazirliyimiz bütün bunları gecə-gündüz danışmalı, fürsətdən maksimum istifadə etməlidir. Bu, regionda real və davamlı sülhə nail olmaq üçün daha vacibdir. Əgər siz bütün bunları BMT-də, ATƏT-də və digər beynəlxalq platformalarda danışmırsınızsa, İrəvanda keçirilən tədbirdə bu barədə kəskin, yarıqorxulu çıxışınızın nə dəyəri var?"

Qeyd edək ki, təxminən, eyni fikri Ermənistanın keçmiş xarici işlər naziri Vardan Oskanyan da səsləndirib. "Dağlıq Qarabağ problemi həll olunmayıb" deyə vay-şivən qaldıran Oskanyanın dediklərindən belə çıxıb ki, rəsmi İrəvan Bakıya qarşı açıq kontekstdə mübarizə apara bilmir. Əlbəttə, keçmiş XİN rəhbərinin təfəkkürünün mücərrəd güşəsində bəslədiyi sərsəmliklərin hamısını diqqətə çatdırmaq, onun Paşinyan hakimiyyətini topa tutan ritorikasının ayrı-ayrı detallarına diqqət yetirmək niyyətindən uzağıq.

Başlıca məsələ ondan ibarətdir ki, hazırda Azərbaycanla sülh gündəminə sadiqliyini, ümumən, regionda barış mühitinin formalaşmasının zəruriliyini bəyan edən bir ölkənin rəsmiləri həmin mühitə qarşı demarş motivli istənilən hərəkət və davranışdan uzaq durmalı, sətiraltı şəkildə kin və hikkə nümayişindən çəkinməlidirlər. Onlar belə halların son dərəcə təhlükəli olduğunu düşünməlidirlər. Düşünmürlərsə, deməli, düşmənçilik niyyətlərinə sadiqdirlər. Başqa sözlə desək, "iddiaları" ilə Ermənistanı məhvə aparmaq niyyətindədirlər.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Qapını açmaq hələ tezdir

## *Türkiyə–Ermənistan sərhədinin açılması yalnız Bakının razılığı ilə mümkün ola bilər*

**Ermənistan–Türkiyə sərhədinin üçüncü ölkələrin vətəndaşları və diplomatik pasportun sahibləri üçün açılması barədə razılaşma İrəvan və Ankaranın xüsusi nümayəndələrinin 2021-ci ildə start götürmüş danışıqların gedişində əldə olunub. Hələlik bu istiqamətdə real addımlar atılmasa da, tərəflər arasında görüşlərin intensivləşdiyi müşahidə olunmaqdadır.**






İki gün bundan əvvəl Ermənistan baş naziri və Türkiyə Prezidentinin xüsusi nümayəndələri sərhəddə növbəti dəfə görüşüblər. Bu məlumatı Ermənistanın Ankara ilə danışıqlar üzrə xüsusi nümayəndəsi, parlamentin vitse-spikeri Ruben Rubinyan verib. O, qarşı tərəflə müzakirələrin müsbət və konstruktiv atmosferdə keçdiyini bəyan edib. Məlumatda o da qeyd olunur ki, xüsusi nümayəndələr Ahurik–Akyaka dəmir yolu sərhəd keçidinin işə salınması ilə bağlı texniki detalları və nüansları müzakirə ediblər. "Bu, daha çox Qars–Gümrü kimi tanınan Ermənistan və Türkiyə dəmir yollarının kəsişdiyi ərazidir. Görüşdə hər iki tərəfdən müvafiq idarələr, yəni dəmir yolunun yenidən işə salınma ehtimalını gerçəkləşdirəcək qurumlar iştirak ediblər. Kifayət qədər böyük nümayəndə heyəti var idi və görüş çox konstruktiv şəraitdə keçdi". Rubinyan görüşdə tarixi Ani körpüsünün bərpasına cavabdeh olan idarələrin nümayəndələrinin də iştirak etdiyini desə də, Ermənistanla Türkiyə arasında dəmir yolunun yenidən işə salınması ilə bağlı siyasi razılaşma yoxdur: "Bəli, razılıq yoxdur, amma hər iki tərəf bunun zəruriliyini başa düşəndə əks proses baş verə bilər. Son məqsəd iki ölkə arasında sərhədin tam açılmasıdır və belə bir anlayış var. Biz də bu cür təmaslar zamanı texniki baxımdan buna hazırlaşırıq".

"Hər iki ölkənin nazirləri belə bir razılığa gəliblər və biz Marqara körpüsünün tez bir zamanda istifadəyə verilməsi üçün mümkün olan hər şeyi edəcəyik". Bunu isə Ankaranın rəsmi təmsilçisi Serdar Kılıç deyib.

Oxuculara xatırladaq ki, Qars–Gümrü yolunun texniki qiymətləndirilməsi ilə bağlı razılıq xüsusi nümayəndələr – Serdar Kılıc və Ruben Rubinyanın cari ilin iyulunda sərhəddə, Marqara keçid məntəqəsində baş tutan görüşündə əldə olunub.

* * *

Həmin dövrdə İrəvan belə bir açıqlama da vermişdi: "Ermənistan iki ölkənin sərhədindəki "Marqara" nəzarət-buraxılış məntəqəsində yenidənqurma işlərini başa çatdırıb və Ankara ilə əldə olunmuş razılığa əsasən, sərhədin tezliklə açılacağına ümid edir".

Burada söhbət diplomatik pasportları olan və üçüncü ölkələrin vətəndaşları üçün sərhədin açılmasından gedir. Az sonra Ermənistan xarici işlər nazirliyinin mətbuat xidməti iki ölkənin sərhədindəki "Alican" nəzarət-buraxılış məntəqəsinin istismara tam hazır olduğunu açıqlamışdı. Hətta bununla bağlı Ankaradan "müsbət siqnalların" gözlənildiyini də bəyan etmişdi. Nəzərə çatdıraq ki, Türkiyə "Alican" nəzarət-buraxılış məntəqəsini son otuz ildə ilk dəfə keçən ilin fevralında açıb. Bunun səbəbi Qahramanmaraş və Hatay vilayətlərində baş vermiş dağıdıcı zəlzələdən zərərçəkənlər üçün Ermənistanın humanitar yardım yükünü daşıyan maşınların Türkiyə ərazisinə buraxılması olub. Təxminən həmin günlərdə Ermənistan xarici işlər naziri Ararat Mirzoyan təbii fəlakətin qurbanlarına rəsmi başsağlığı verməkdən ötrü Ankaraya səfər etmişdi.

Azərbaycanla sülh müqaviləsinin imzalanmasını ləngitməsi, eləcə də Zəngəzur dəhlizinin açılması ilə bağlı öhdəliyini yerinə yetirməməsi İrəvanın Ankara ilə həm diplomatik, həm də iqtisadi əməkdaşlıq məsələlərinin ləngiməsi deməkdir. Ankara bunu Ermənistan hakimiyyətinin nəzərinə dəfələrlə çatdırıb. Yəni, Türkiyə hökuməti qonşusunun nəzərinə aydın şəkildə çatdırıb ki, onunla münasibətlərin normallaşması, istisnasız olaraq, Azərbaycanla sülhə nail olmasından və Zəngəzur dəhlizinin açılmasından birbaşa asılıdır. Bu mövqedə dəyişiklik ola bilməz. Ankara qapılarını haylar üçün açmağın vaxtının yetişmədiyini yaxşı bilir.

Paşinyan iqtidarı son vaxtlar Azərbaycanla tezliklə sülh sazişinin imzalanmasında maraqlı olduğunu tez-tez təkrarlayır. Amma buna baxmayaraq İrəvan ikitərəfli danışıqlar prosesini qeyri-müəyyən müddətədək uzatmaqdan ötrü ən müxtəlif bəhanələr uydurmaqda davam edir. Aydın məsələdir ki, onun vaxtı uzatmaqdan gözlədiyi danışıqlar masası arxasında "kollektiv Qərb"in Bakıya siyasi təzyiqi gücləndirməsi və bu yolla müəyyən güzəştlər qoparmasıdır. Fəqət sülhün ləngiməsi Bakını alternativ axtarışına məcbur etdi. Misal üçün, Ermənistanın 2020-ci il 10 noyabr Bəyanatınnda fiksə edilmiş öhdəliklərini yerinə yetirmədiyini görən Azərbaycan Naxçıvana nəqliyyat dəhlizini İran ərazisindən keçməklə inşa edilməsinə üstünlük verdi. Araz çayının cənub sahilindən salınacaq həmin marşrutla bağlı Bakı Ermənistan ərazisindən keçəcək Zənəgəzur dəhlizinə marağının azaldığını nümayiş etdirmiş oldu.

**Siyasi icmalçı Fərhad Məmmədov** qeyd edir ki, iki ölkə arasında sərhəd



probleminin başlıca səbəbi Ermənistanın Zəngəzur dəhlizinin açılmasına dair 10 noyabr 2020-ci il Bəyanatının 9-cu bəndində göstərilən öhdəliyini yerinə yetirməməsidir: "Buna görə Azərbaycan həmin dəhlizin İran ərazisindən salınmasına üstünlük verdi. Ortaya məntiqi sual çıxır: Yaranmış vəziyyətdə Ermənistan sərhədin üçüncü ölkələrin vətəndaşları və diplomatik pasportları olanlar üçün açılması ilə bağlı Türkiyədən "pozitiv siqnal" ala bilərmi? Hadisələrin məhz bu yöndə inkişafı az ehtimal olunur. Çünki Ankara, ilk növbədə, əmin olmalıdır ki, İrəvan regionda sülhün və sabitliyin yaranmasında sözdə deyil, əməldə maraqlıdır. Yeri gəlmişkən, Türkiyə Milli Təhlükəsizlik Şurasının keçən ilin noyabrında keçirilən iclasında Cənubi Qafqazdakı mövcud vəziyyət və Azərbaycanla Ermənistan arasında sülhün əldə olunması perspektivi kontekstində Zəngəzur nəqliyyat dəhlizi ətrafında yaranmış yeni situasiya da müzakirə edilib. Çox güman ki, həmin müzakirələrin gedişində, həmçinin Türkiyə–Ermənistan münasibətlərinin normallaşdırılması perspektivləri mövzusuna da toxunulub".

Rəsmi Ankaranın bu müstəvidə fəaliyyətini Azərbaycanla koordinə etdiyinə diqqəti çəkən politoloq F.Məmmədova görə, hazırkı durumda Türkiyə Ermənistanla sərhədi açmağa hazır olduğuna dair heç bir rəsmi bəyanat verməyə hazırlaşmır. Ekspert Ankaranın İrəvanla münasibətlərin normallaşdırılması prosesi istiqamətində atacağı bütün mümkün addımlar barədə Bakını məlumatlandırdığına əminliyini dilə gətirdi.

* * *

Baş verənlərin fonunda İrəvan hələ də yalandan özünə təsəlli, ictimaiyyətinə isə dezinformasiya verməklə məşğuldur. Yadımıza keçən il ATƏT Xarici İşlər Nazirləri Şurasının Skopyedə keçirilən illik toplantısında Ermənistanın baş diplomatı Ararat Mirzoyanın çıxışı düşür. O, həmin toplantıda bəyan etmişdi ki, "çox güman yaxın həftələr ərzində" Ankara Ermənistan–Türkiyə sərhədinin açılması istiqamətində konkret addımlar atacaq. Hətta Türkiyənin Xarici işlər naziri Hakan Fidanla görüşündə sərhəd nəzarət-buraxılış məntəqəsinin açılmasının "dəqiq müddətinin müəyyən edildiyini" avropalı həmkarlarının diqqətinə çatdırmışdı. Mövzuya daha "geniş yanaşaraq ona qol-qanad" verən Mirzoyan bir az da irəli gedərək, bunun regionun inkişaf üçün xüsisi əhəmiyyət kəsb etdiyini vurğulamağı da unutmamışdı.

**Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıxov** İrəvanın Türkiyə ilə sərhədin açılacağı ilə bağlı məlumatları birinci dəfə vermədiyinə diqqəti çəkdi: "Rubinyan Ermənistanla Türkiyə arasında sərhədin açılacağı barədə nikbin məlumatları əvvəllər də vermişdi. Bu məsələ ilə bağlı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bir neçə dəfə bildirib ki, yalnız Azərbaycanla sülh sazişini imzaladıqdan sonra Türkiyə Ermənistanla həm diplomatik münasibətlərini, həm də sərhəddən gediş-gəlişi bərpa edə bilər. Yəni, sülh sazişi imzalanmaya qədər Ermənistanla heç bir sahədə, o cümlədən, sərhədin açılması ilə bağlı məsələlər öz həllini tapmayacaq. Təbii olaraq, biz buna inanırıq və bu inam konkret faktlara əsaslanır. Rubinyan tərəfindən müxtəlif vaxt və məqamlarda bu xarakterli bəyanatların səsləndirilməsi heç də real durum və həqiqətlə üst-üstə düşmür. Əslində İrəvan bu reallığı çoxdan başa düşməli idi. Nəhayət, bundan düzgün nəticə çıxarmalı və anlamalıdır ki, o, Azərbaycanın beynəlxal hüquq normalarına uyğun şərt və tələblərini yerinə yetirmədən Türkiyə ilə sərhəddən gözünü çəkməlidir. Məsələnin həlli yolu məhz bundan ibarətdir. Vəssalam!"

Mövzuya yekun olaraq onu da nəzərə çatdıraq ki, Türkiyənin Müdafiə naziri Yaşar Gülər Bakıya səfəri zamanı qeyd etmişdi ki, Ermənistan regionda sülhün və sabitliyin bərpa olunmasının perspektivlərini lazımi səviyyədə qiymətləndirməyi bacarmır. Türkiyəli nazir sözlərinə onu da əlavə etmişdi ki, "3+2" formatı bölgənin problemlərinin dinc yolla həlli üçün uğurlu platformadır.

Bəli, Türkiyənin siyasi isteblişmenti Ermənistanın regional sülhün və sabitliyin təmin edilməsində tutduğu mövqedən məmnun deyil. Belə olan təqdirdə qardaş ölkənin Ermənistanla sərhədi açmasından söhbət gedə bilməz. Həm də Ankaranın bu məsələni Bakının rəyini nəzərə almadan reallaşdırması qeyri-mümkün olduğu qədər inandırıcı deyil. Bu isə o deməkdir ki, Ermənistan tərəfinin Türkiyə–Ermənistan sərhədində nəzarət-buraxılış məntəqəsinin açılması barədə dedikləri sadəcə təsəlliverici ümiddir və reallıqla qətiyyən üst-üstə düşmür.

Rəsmi İrəvan faydasız diplomatik vurnuxmalardan yorulandan sonra bir daha əmin olacaq ki, Türkiyəyənin istər quru, istərsə də dəmir yolları Ermənistanın üzünə yalnız Azərbaycanla sülhə gəldikdən sonra açılacaq.

***İmran BƏDİRXANLI***
***XQ***

# Ermənistanda revanşistlərə qarşı alternativ qüvvə gözə dəymir

## *Zurabyanın "sürünən müharibə"si və Paşinyanın iqtidarda qalma səbəbləri*

**Ermənistanda revanşistlərin fəallaşması tamamilə yeni məcraya qədəm qoyub. Xüsusən də ölkəmizdə keçirilmiş COP29-dan sonra. Onlar davamlı şəkildə Azərbaycanın Ermənistan üzərinə hücuma keçəcəyini bildirirlər. Revanşistlərin cəmləşdiyi təşkilatlar sırasında Erməni milli konqresi (EMK) başlıca yer tutur. Söhbətimiz təşkilatın sədr müavini, Ermənistan parlamentinin deputatı Levon Zurabyanın keçirdiyi mətbuat kofransında səsləndirdiyi fikirlər barədədir. Bəribaşdan deyək ki, onun bir fikri çox təəccüblü gəldi.**

L.Zurabyan Azərbaycanın "Zəngəzur dəhlizi" adlandırdığı əməliyyata hazırlaşmasından danışıb. Ancaq onun diqqəti baş nazir Nikol Paşinyan iqtidarının tənqidinə yönəltdiyi aydındır. Zurabyan Nikola və tərəfdarlarına hiddətini göstərmək üçün Azərbaycan amilini qabardır. Daha doğrusu, ölkəmizi təcavüzkar qiyafəsində təqdim edir.

EMK-nın təmsilçisi bildirib ki, Ermənistan rəhbərliyi bir blogerə çevrilib. Axı "Facebook", "TikTok" və digər sosial şəbəkə platformalarında maraqlı materiallar yerləşdirən blogerlər var. Zurabyan Paşinyanı, ailə üzvlərini və ətrafını nəzərdə tutaraq, "bu adamlar hansısa filmə baxdıqlarını, velosiped sürdüklərini, dolma bükdüklərini, təraş etdiklərini və bəzi digər boş səhnələri yayımlayırlar" –deyərək fikrinə aydınlıq gətirib: "Onlar, sadəcə olaraq, "The Kardashans" realit-şousuna (erməni pornoulduz Kim Kardaşyanın verilişi nəzərdə tutulur – red.) çevriliblər. Görünür, ölkə rəhbərini siyasət və Ermənistan ətrafında baş verənlər maraqlandırmır".

L.Zurabyan buna qarşılıq Azərbaycanın təbliğatının Ermənistanın müharibəyə və təxribatlara hazırlaşması, Fransanın və Hindistanın ölkəni silahlandırması üzərində qurulduğunu bildirib. EMK təmsilçisi haradasa haqlıdır. Azərbaycanda belə bir fikir var ki, İrəvan sürətli silahlanma xətti götürüb. Paşinyanın velosiped sürməsi, həyat yoldaşı Anna Akopyanın isə dolma bükməsi səhnələrinə gəlincə, bunlar gözdən pərdə asmaqdan, sadəliyin imitasiyasından, Avropanın məmurları kimi görünmək istəyindən, bir sözlə, saxtalıqdan qaynaqlanır. Saxtalıq dövlət siyasətinin tərkib hissəsidirsə, Zurabyan təəccüblənməməlidir. Bu mənada Nikola hələlik tayı-bərabəri olan yoxdur.

L.Zurabyanın sözlərinə görə, erməni iqtidarının hazırda tutduğu yol sülh yolu deyil. Bu mənada da EMK-nın sədr müavini haqlıdır. Çünki, Paşinyan və komandası barış istəmir, imitasiya ilə məşğul olur. Daha dəqiq desək, Nikolun hərəkətinin adı imitativ manipulyasiyadır. Yəni, rəsmi İrəvanın yeritdiyi xəttin mahiyyətinə tam diqqət yetirməyincə, belə təəssürat yaranır ki, Ermənistan sülh arzulayır. Amma qətiyyən belə deyil.

Zurabyanında öz "məntiqi" var. Onun bildirdiyinə görə, Paşinyan bütün dağıdıcı fəlakətlərin onun siyasətinin nəticəsi olduğunu nəzərə almır və özünü ölkəni barışa daşımaq istəyən sülhsevər baş nazir, qalanları, o cümlədən, müxalifət təmsilçilərini isə revanşistlər qimsində göstərir. Mövcud anlamda da EMK təmsilçisini haqlı saymaq mümkündür. Çünki Nikol Qərbdəki ağalarına təmsil etdiyi iqtidarın necə çətin şəraitdə fəaliyyət göstərdiyini daim sübuta yetirməyə çalışır ki, həmin ağalar alternativ axtarışına başlamasınlar. Zurabyanın sözlərindən belə çıxır ki, Paşinyana qarşı olan hərəkatların uğur qazanmamasının kökündə də məhz bu amil dayanır. Yəni, alternativsizlik. Bu yerdə EMK-nın sədr müavininin fikirlərindəki ən vacib məqama keçid alaq.

Beləliklə, L.Zurabyan N.Paşinyana qarşı yönəlmiş ictimai hərəkatların nə üçün iflasa uğramasından söz açarkən, bəzi amilləri sadalayıb. Məsələn, deyib ki,



bir vaxtlar (Tavuş arxiyepiskopu) Baqrat Qalstanyanın başlatdığı hərəkat 50 min insan topladı. Bu, çox böyük rəqəm idi: "2018-ci ildən sonra ilk dəfə olaraq ən böyük rəqəm qeydə alındı. Nikol Paşinyan indi adam toplamaq istəsə, nə 10 min, nə də 50 min toplaya biləcək. Bəs bu 50 min insan niyə heç nə edə bilmədi? Təbii, burada Baqrat Qalstanyanın siyasi təcrübəsizliyi böyük rol oynadı. Amma başqa vəziyyət də var: xalq revanşist kimi qəbul edilməyəcək və hakimiyyətə gələcəyi təqdirdə, dərhal Azərbaycana qarşı müharibə aparmayacaq bir qüvvə görməyincə, Nikol Paşinyan təhlükəsiz durumdadır".

Göründüyü kimi, L.Zurabyan son dərəcə maraqlı məqama toxunur. Onun sözlərindən belə çıxır ki, erməni xalqı Paşinyanı Azərbaycana qarşı müharibə etməyəcək, revanşist mövqe tutmayacaq qüvvənin mövcud olmadığına görə dəstəkləməkdədir. O zaman məntiqi surətdə Nikolun son illərdəki reytinqinin aşağı düşməsinə diqqət yetirək. Ermənistan silahlanır və təəssürat yaranır ki, ölkə yeni savaşa hazırlaşır. Deməli, baş nazirin nüfuzunda geriləmə buna görədir(?). Bu qənaət, müəyyən mənada, məntiqidir. Çünki, prinsip etibarilə, erməni cəmiyyəti 44 günlük müharibədə gördüyünü görüb. Yenidən həmin dəhşəti yaşamaq istəməz. Amma...

"Əmması" budur ki, Paşinyan 2021-ci ildə keçirilmiş növbədənkənar parlament seçkiləri əsnasında Qarabağla bağlı vədlər vermişdi. Amma onların heç biri özünü doğrultmadı. Əksinə, 2023-cü ildə Ermənistanın Qarabağ avantürasına son qoyuldu, Azərbaycan torpaqlarındakı erməni separatizminin kökü kəsildi. Elə buna görə də L.Zurabyan 2024-cü ilin təhlilini verərkən, məhz 2023-cü ilə köklənir. Özü də fərqinə varmadan revanşizmi təbliğ edir. O, "Artsax"ın qurban verilməsindən söz açır və Nikola qarşı qəzəb aşılayır. Ən əsası isə bu məsələdə Ermənistanın təhlükəsizliyini qaldırır. Zurabyanın fikrincə, Paşinyan iqtidarı anti-Azərbaycan ritorikanı aşağı salmaq yolu tutub, mövqeyini ölkənin təhlükəsizliyinin qorunması kontekstində izah edib və bu yanaşma yanlış olub. Çünki Qarabağdakı separatçı rejimi qorumamaq 2024-cü ili Ermənistan üçün riskli ilə çevirib. "Onlar dedilər ki, bu bizə sülh gətirəcək, amma əslində, 2024-cü il sürünən müharibə ili oldu. Bizə təsvir edilən bütün vədlər, parlaq perspektivlər puça çıxdı və mən 2024-cü ili Paşinyanın vəd etdiyi perspektivlərin iflasa uğradığı il kimi xarakterizə edə bilərəm. Hər şey pozulur və bu adamın cavabı yoxdur. Bəs nə? Biz təslim oluruq və davamlı olaraq mövcud istiqamətdə gedirik. Əvəzində nəsə almışıq, ya yox? Eyni zamanda, hər şey getdikcə pisləşir. Çünki qlobal eskalasiya həyatımıza və təhlükəsizliyimizə təsir göstərir", – deyə Zurabyan fikrini tamamlayıb.

***Ə.RÜSTƏMOV***
***XQ***

# "Stajlı ermənipərəst"in siyasi naşılığı

**(əvvəli 1-ci səhifədə)**

Ölkəmiz əleyhinə atılan addımların ən böyüyü, şübhəsiz ki, 1992-ci ildə ABŞ Konqresinin "Azadlığa dəstək aktı"na etdiyi 907-ci düzəliş oldu. Bilavasitə erməni lobbisinin təşəbbüsü ilə qəbul edilmiş həmin düzəliş Azərbaycana ABŞ-nin birbaşa dövlət yardımını qadağan edib. Bu qadağa Azərbaycanı iqtisadi və siyasi sabitlik üçün ABŞ hökumətindən birbaşa yardım almayan yeganə postsovet dövlətinə çevirmişdir. Yeri gəlmişkən, qeyd edək ki, düzəlişin qüvvəyə mindiyi 1993-cü ilin yanvarına qədər isə Ermənistan silahlı qüvvələri Azərbaycanın keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində nəzarətdə saxladığı sonuncu şəhəri Şuşanı, vilayətdən kənardakı Laçın rayonunu işğal etmiş, Xocalı şəhərini tutaraq dinc sakinlərə qarşı soyqırımı aktı törətmişlər.



Onu da bildirək ki, ABŞ-nin hazırkı prezidenti Cozef Bayden 907-ci düzəlişin qəbulunda fəal rol oynamış və dəfələrlə onun ləğv edilməsinə qarşı çıxışmışdır. Ümumiyyətlə, Azərbaycana qarşı atılan addımlarda Demokratlar Partiyasının üzvləri hər zaman xüsusi fəallıq göstərmişlər. Erməni lobbisini təmsil edən bu şəxslər işğal dövründə Azərbaycanın ərazi bütövlüyünə dəfələrlə hörmətsizlik etmişlər. Onlar rəsmi Bakıdan icazə almadan, ölkəmizin rəyini soruşmadan, qanunlarımıza tabe olmadan istədikləri vaxt Ermənistan ərazisindən keçməklə işğal olunmuş torpaqlara daxil omuşlar.

2020-ci ildə Qarabağ və Şərqi Zəngəzurun işğalına son qoyulması, 2023-cü ildə isə Azərbaycanın suverenliyinin tam bərpa olunması bu qüvvələri bərk pəjmürdə etdi. Onlar hələ də bu hadisələrdən özlərinə gələ bilmirlər. Azərbaycanın Qarabağ Zəfəri onların, necə deyərlər, yuxusun ərşə çəkib. Odur ki, bu qüvvələr ölkəmiz əleyhinə səfərbər olublar. Çıxış yolunu Azərbaycana qarşı qarayaxma kampaniyasının "dozasını artırmaqda", böhtanların sayını çoxaltmaqda, bədxah əməllərin sırasına yenilərini əlavə etməkdə görürlər. Bununla da, sanki, Azərbaycandan acıq alır, hirslərini soyudurlar.

Bugünlərdə ABŞ Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsinin "stajlı" üzvü, demokrat Bred Şerman Konqresin Ermənistan üzrə komitəsi sədrinin müavini seçilib. Qeyd edək ki, Konqresin 100-dən çox üzvündən ibarət komitə Ermənistan–ABŞ münasibətlərinin möhkəmləndirilməsi və "erməni məsələsi"nin gündəmdə saxlanılması ilə məşğuldur. Bununla bağlı yaydığı açıqlamada Şerman deyib: "Komitənin sədr müavini vəzifəsinə seçilmək mənim üçün böyük şərəfdir. Mən ömrümün, demək olar ki, otuz ilini ABŞ və Ermənistan arasında əlaqələrin möhkəmləndirilməsinə, ermənifobiya ilə mübarizəyə və ABŞ-dəki erməni icmasının maraqlarını müdafiə etməyə həsr etmişəm. Komitə sədrinin müavini kimi mən bu irsə əsaslanaraq, Ermənistan və onun xalqı üçün demokratik, təhlükəsiz və firavan gələcək naminə həmkarlarımla birlikdə çalışacağam".

Şermanın hansı fikri yalan olsa da, bu fikri doğrudur. O, həqiqətən də, 1997-ci ildən Nümayəndələr Palatasında Demokratlar Partiyasını təmsil edən konqresmen kimi fəaliyyət göstərir. Hazırda qanunverici orqanda Kaliforniya ştatının Los–Anceles şəhəri üzrə 30-cu seçki dairəsini təmsil edir. Məlum olduğu kimi, Kaliforniya ştatı ermənilərin kompakt halda yaşadıqları ştatlardan biridir. Hətta, Amerika kino sənayesinin mərkəzi olan Los–Ancelesdəki məşhur Hollivud rayonunda "Kiçik Ermənistan" adlanan mikrorayon yerləşir. Təxminən 20 min nəfər əhalisi olan mikrorayonun adı orada Amerika ermənilərinin cəmləşməsindən, eləcə də ermənilərə məxsus çox sayda mağaza və müəssisələrin olmasından irəli gəlir. Yeri gəlmişkən qeyd edək ki, oradakı Aleksandriya (İsgəndəriyyə–S.H.) prospektində erməni apostol kilsəsinin 1978-ci ildə tikilmiş Karapet kilsəsi yerləşir. Hər il aprelin 24-də "Kiçik Ermənistan"da 1915-ci ildə baş verdiyi iddia olunan qondarma "erməni soyqırımı"nın tanınmasına dəstək məqsədilə müxtəlif aksiyalar, o cümlədən fləşmoblar və avtomobil yürüşləri ilə müşayiət olunan mitinqlər keçirilir.

Qeyd etdiyimiz kimi, ərazidə ermənilərə aid xeyli müəssisə mövcuddur. Bu sırada Çamlyan, Pilibos erməni məktəbini, ixtisasların öyrənilməsi, erməni bazar günü məktəblərini, maraq cəmiyyətlərini, xeyriyyə fondlarını, siyasi partiyaları, biznes qurumlarını və sair göstərmək olar. Beləliklə, aydın olur ki, burada Şermanın potensial seçicisi olan çoxlu etnik erməni var. Bu mənada onun uzun illərdir ki, Ermənistanın maraqlarını müdafiə etmək üçün aktiv fəaliyyət göstərməsi qətiyyən təəccüblü deyil. Bred bunu Azərbaycanın 20 faiz ərazisinin işğal altında olduğu dövrdə də edib. Şerman Azərbaycana ABŞ-nin birbaşa maliyyə yardımı ayırmasını qadağan etməklə yanaşı, Qarabağ separatçılarına illik rəsmi maliyyə yardımı ayrılmasını dəstəkləyən 907-ci düzəlişin qüvvədə olma müddətinin uzadılmasını müdafiə edənlərdən biridir.

Onun keçmiş Ermənistan–Azərbaycan münaqişəsinin səbəb və nəticələrini təhrif edərək, bir neçə dəfə bilərəkdən yalan danışması da yaddaşlardan silinməyib. Ötən ilin oktyabrında Şerman açıq şəkildə təxribat xarakterli bəyanatla çıxış etmişdi. Başabəla konqresmen "X" platformasındakı mikrobloqunda yazmışdı: "Müdaxilənin qarşısını almaq üçün indi Ermənistanı müvafiq müdafiə silahları ilə silahlandırmaq lazımdır". Burada Şermana hansı müdaxilədən danışdığını sual vermək lazımdır. Məgər o bilmir ki, münaqişə, o cümlədən hərbi əməliyyatlar heç vaxt Ermənistan ərazisində olmayıb, həmişə bizim torpağımızda olub?!

Eyni zamanda, Şerman bu bəyanatı Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü tanıdığını elan etməsindən sonra vermişdi. Hətta, Hayastan parlamentinin sədri Alen Simonyan bu yaxınlarda bəyan edib ki, Azərbaycan öz ərazilərini BMT Nizamnaməsinə və Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq azad edib. Amma bütün bu reallıqlar Şermanın növbəti dəfə anti-Azərbaycan bəyanatlar səsləndirməsinə mane olmur. Bu ilin aprelində isə Şerman lokal xarakterli antiterror tədbirləri nəticəsində Qarabağ bölgəsini tərk edən ermənilərə yardımları artırmaq, eyni zamanda, Azərbaycana yardımı azaltmaq gərək olduğunu söyləmişdi. ABŞ-nin Azərbaycana hansı yardımından söhbət getdiyini açıqlamayan Şerman bununla siyasi naşılığını ortaya qoymuşdur.

Konqresmenə xatırlatmaq istərdik ki, 907-ci düzəlişin qüvvəsinin müvəqqəti də olsa dayandırılması üçün imkan 2001-ci il sentyabrın 11-də baş vermiş məşhur terror aktlarından sonra yaranıb. Azərbaycan anti-terror koalisiyasına qoşularaq ABŞ-nin Əfqanıstanda keçirdiyi hərbi əməliyyatlarda bu ölkənin təyyarələrinə öz hava ərazilərindən istifadəyə icazə verməklə kömək göstərib. Həmin əlaqələr çərçivəsində hərbi əməkdaşlığın genişləndirilməsinə ehtiyac yaranıb. Beləliklə, ABŞ Prezidenti Corc Buş 2002-ci ilin yanvarında 907-ci düzəlişin qüvvəsinin müvəqqəti dayandırılması haqqında qərar verib. Cozef Baydenin göstərişinə uyğun olaraq, ABŞ Konqresi "Azərbaycanın Ermənistanı işğal riski"ni əsas gətirərək 2022-ci ildə növbəti 2 il üçün 907-ci düzəlişin qüvvədə olma müddətini uzatdı. Bu baxımdan, Şermanın hansı köməyi nəzərdə tutduğunu aydın yazmasına ehtiyac var. Qarabağdan getmiş ermənilərə kömək etməyə gəlincə isə ermənipərəst konqresmen bilməlidir ki, separatçılar Ermənistanda qalmamağa, daha yaxşı həyat axtarışında başqa ölkələrə üz tutmağa üstünlük verirlər.

Ümumiyyətlə, Şerman və onun kimilərinin hazırda yürütdükləri siyasət ABŞ-ın özünün milli maraqlarına da ziddir. İkinci Qarabağ müharibəsindən sonra regionda yeni reallıqlar formalaşıb. Əvvəldən də regionun ən güclü ölkəsi olan Azərbaycanın mövqeləri indi daha da möhkəmlənib. Vaşinqton Cənubi Qafqazın şəriksiz iqtisadi, siyasi və hərbi lideri olan Azərbaycanla əlaqələrin sürətlə və geniş inkişafında maraqlı olmalıdır. Azərbaycan Xarici İşlər Nazirliyinin bugünlərdə yaydığı məlumatda bildirildiyi kimi, son 4 il bir çox dönəmlərdə dostluq və əməkdaşlıq ilə yadda qalan Azərbaycan–ABŞ münasibətləri üçün itirilmiş illər kimi qiymətləndirilir. Zənnimizcə, bu fikir bütün demokratlar, o cümlədən, ziyankar fəaliyyətlə məşğul olan Şerman üçün də keçərlidir...

**Mövzu üzrə fikirlərini XQ ilə bölüşən politoloq İlyas Hüseynov** bildirdi ki, ABŞ-ın Azərbaycana münasibətində ciddi ziddiyyətlər mövcuddur. Onun sözlərinə görə, biz hər zaman bunun səbəblərini axtarmağa çalışır, arxasında hansı qüvvələrin dayandığını təhlil edirik. Lakin aydındır ki, ABŞ Konqresində kifayət qədər azərbaycanofob, türkofob şəxslər var. Onlar ermənilərin maraqlarının təmin olunması üçün əllərindən gələni edirlər: "Hətta, bəzən Ermənistanı ABŞ-nin maraqlarının üzərindən xətt çəkmək hesabına müdafiə edir, "erməni məsələsi"nə xüsusi həssaslıqla yanaşırlar. İndiyədək Frenk



Pallone, Adam Şiff, Nensi Pelosi, Robert Menendes kimi şəxslərin anti-Azərbaycan fəaliyyətini görmüşük. Onlar çirkli erməni maliyyəsi hesabına özlərinə siyasi karyera qurublar. Müxtəlif bölgələrdən qanunverici orqana seçiliblər və seçildikdən sonra ermənilərin sifarişlərini yerinə yetiriblər. Çünki məşhur deyimdə deyildiyi kimi, pulu kim verirsə, musiqini də o sifariş edir".

Azərbaycana qarşı fəaliyyətin istər işğal dövründə, istərsə də ondan sonra davam etdiyini bildirən politoloq dedi ki, 30 il ərzində işğal faktının aradan qaldırılması üçün heç bir dinləmə keçirməyən ABŞ Konqresi 2020-ci ildən sonra təxribatyönlü, həqiqətləri təhrif edən dinləmələr keçirib: "Biz bunu təəccüblə qarşılamışıq. Çünki Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Ölkəmiz bölgədə təhlükəsizlik mühitinin formalaşmasına önəmli töhfələr verib. Separatçılığa, transmilli cinayətkarlığa və terrorçuluğa son qoyub. Təəssüf ki, bu ikili standartlar uzun müddətdir davam edir. İndi isə Bred Şermanın Konqresin Ermənistan üzrə komitəsinin sədr müavini seçilməsi onun ölkəmiz əleyhinə fəaliyyətini gücləndirəcəyi anlamına gəlir. Bu şəxs ermənilərə xidmət üçün sanki "sədaqət andı" içib".

İ.Hüseynov güman edir ki, 2025-ci il yanvarın 20-dən, yəni Donald Trampın səlahiyyətlərinin icrasına başlamasından sonra ABŞ–Azərbaycan münasibətləri keyfiyyətcə yeni mərhələyə qədəm qoyacaq. Tramp administrasiyası ilə əməkdaşlıq formalaşacaq və münasibətlər əvvəlki məcrasına qayıdacaq. Biz iki ölkə arasında münasibətlərin yeni səhifəsinin açılacağına ümidliyik. Ancaq Şerman kimilərinin cavabı isə bundan sonra da veriləcək.

***Səxavət HƏMİD***
***XQ***

# Şəxsiyyətin bütövlüyü



II MƏQALƏ

**Demokratiya insanların şüurunda dəyişiklik deməkdir. Bu dəyişiklik inqilabla olmur, təkamül yolu ilə, tədricən gedir.**

**Heydər ƏLİYEV**
**Ümummilli lider**

## Azərbaycançılıq və dövlətçilik şüurunun intellektual fəzilətliliyi

Azərbaycançılığın məfkurə kimi formalaşdırılmasında dövlətçilik şüurunun intellektual fəzilət kimi qiymətləndirirlməsi vacib məsələdir. Bunun Azərbaycan təcrübəsi üçün siyasət və müasirliklə yanaşı, tarixiliklə də əlaqəsi dərindir. Sonuncu fikrin işığında Heydər Əliyevin fəaliyyətinə nəzər salanda maraqlı məqamları görə bilərik. Həmin kontekstdə Heydər Əliyev liderliyinin bir sıra özəlliklərinə baxmaq zəruridir.

Heydər Əliyevin digər keyfiyyətləri ilə yanaşı, liderlikdə dahiliyi ondan ibarətdir ki, nəzəri cəhətdən ən mürəkkəb məsələləri praktikada sadə və aydın ifadə edə bilirdi. Belə bir səviyyəyə yüksəlmək çox çətin bir prosesdir. Çünki xüsusilə siyasi liderlikdə elə lakonik, sərrast və konkret məzmunlu fikir yürütmək lazım gəlir ki, ən dərin qatlarda dövlətçiliyə xidmət etsin.

## Müdrik kəlamlar

Anlayırıq ki, nəzəri cəhətdən mürəkkəb olan bu tezisin praktiki nümunələrini göstərməyə ehtiyac vardır. Ulu öndərin bir neçə kəlamının Azərbaycanın tarixi, siyasi, dövlətçilik ənənəsinin reallıqları işığında izahı mənzərəni tam aydınlaşdırır.

Heydər Əliyevin "Ədaləti ədalətsizliklə bərpa etmək olmaz" tezisi birbaşa Azərbaycanın dövlətçilik ənənəsinin əsas sütunlarından olan bir fəzilətin sadə və praktiki ifadəsidir. Bu fikir hər bir insanı həyatda ədalətli olmağa səsləyir. Ədalətlilik fəzilət kimi qədimdən dünya çapında qəbul edilən davranış nümunəsidir. Azərbaycan təcrübəsində isə fərdi və kollektiv (cəmiyyət) miqyasında davamlı qayda olaraq, şüurlarda mövcuddur. Bu anlamda Heydər Əliyev ədalətli olmağı müasir dövlətçilik şüurumuzun əsas komponentlərindən biri kimi tövsiyə etmişdir.

Ulu öndər Azərbaycan cəmiyyəti üçün ənənəvi olan və tarixin bütün dönəmlərində sosiumun özünü toparlamasının başlıca faktoru sayılan mədəniyyət haqqında da aydın fikir söyləmişdir. Heydər Əliyev demişdir: "Xalqı həmişə mənəviyyat birləşdirmişdir. Çünki başqa əsaslara nisbətən mənəvi əsaslar daha üstündür".

Başqa tezislərində isə Ulu öndər bu ümumi fikrin müxtəlif cəhətlərini açır. Məsələn, "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir", "Vətənpərvərlik insanın daxilindəki duyğulardır. Əgər bunlar yoxdursa, o insan mənəviyyatsızdır" və s.

Bu fikirlər də faktiki olaraq dövlətçilik şüuru kontekstinə malikdir və insanı mədəniyyətin Azərbaycan cəmiyyətinin mövcudluğu, birliyi və tarixi təkamülünün təməlində dayandığı həqiqətinə fokuslandırır. Alimlərin geniş həcmli kitablarda ifadə etməyə çalışdıqları əhəmiyyətli fikirləri Ulu öndər sadə dillə ifadə edilmiş bir neçə dərin tezisdə əks etdirə bilmişdir. Azərbaycan dövlətçiliyinin məhək daşının mədəniyyətlə əlaqəli olması dahiyanə deyilmiş və strateji konteksti məharətlə ifadə edilmiş fikir, istiqamətverici, motivəedici mövqedir!

Vurğulanan tezisləri həm də liderin mövqeyi kimi təqdim etməyimiz təsadüfi deyildir. Həmin fikirlərdə ifadə olunan mənanın praktiki və tətbiqi cəhəti məhz mövqe (burada əsas olaraq fikrin feili davranışa transformasiyasını nəzərdə tuturuq F.Q.) kimi əks olunması Heydər Əliyevin digər fikirlərində mövcuddur. Onların sırasında bü günümüz üçün də böyük aktuallıq kəsb edən "Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir!" və "Vətən müharibəsi bütün xalqın, hər bir vətəndaşın öz şərəf və namusunu qorumaq üçün aparılan müharibədir!" tezislərini vurğulaya bilərik.

Bu fikirlərdə dövlətçilik şüuru fonunda iki məqam dahiyanə ifadə edilmişdir. Birincisi, əsl vətəndaş üçün Vətənin taleyi həm də onun özünün taleyidir. Bu, müasir tarixi dönəmdə dövlətçilik şüurunun mərkəzi müddəasını təşkil edir. Vətəndaş fərd olaraq özü ilə kollektivin (cəmiyyətin) identikliyini sinxronlaşdıra bilirsə, onun dövlətçilik şüuru tam oturuşmuşdur. Bu mövqenin real təsdiqi isə Vətən müharibəsinin anlamıdır.

Heydər Əliyev öyrədir ki, "Vətən müharibəsi bütün xalqın, hər bir vətəndaşın öz şərəf və namusunu qorumaq üçün" vətəndaşın savaşı, cəmiyyətin mübaizə nümunəsidir! Deməli, insanın Vətənini qoruması, əslində, onun özünün şərəf və namus məsələsi olmalıdır. Müstəqil dövlətçiliyin mövcudluğu fonunda isə bu, dövlətçilik şüurunun fəzilətliliyinin intellektual və mənəvi-əxlaqi səviyyələrin sintezində formalaşdığı anlamını verir.

Bütün bu fikirlərin təməlində Ulu öndərin daha ümumi miqyasda liderliyinin bir mühüm özəlliyi dayanır. O da Heydər Əliyevin dövlət quruculuğuna tarixlə mədəniyyətin qarşılıqlı əlaqəsində yanaşması ilə bağlıdır. Bu yöndə Heydər Əliyevin iki tezisini müqayisə etmək kifayətdir. Onlar aşağıdakılardır: "Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır" və "Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir"!

Əgər xalq əsas olaraq mədəniyyəti ilə tanınırsa və tarixi olduğu kimi dərk etmək zəruridirsə, onda Azərbaycan tarixini o zaman olduğu kimi dərk edə bilərik ki, onun formalaşmasında mədəniyyətin yerini və rolunu obyektiv qiymətləndirə bilək! Bununla mədəniyyət faktoru Azərbaycan xalqının həm kollektiv mövcudluğunun təməl faktoru, həm də dövlətçilik ənənəsinin ana xəttini təşkil edən amil kimi təqdim olunur. Bu istiqamətverici tövsiyə müasir mərhələdə Azərbaycan fəlsəfi və politoloji fikrinin ən aktual mövzularından olmalıdır!

## Təhlükəsizliyin təmini

Dünyanın hazırkı geosiyasi mənzərəsindən baxanda Ulu öndərin Azərbaycanın təhlükəsizliyi ilə bağlı hansı səviyyədə siyasi kurs müəyyən etdiyini anlamaq olar. Tədqiqatçılar müasir şəraitdə təhlükəsizliyin sabitlik, davamlı əməkdaşlıq və strateji inkişafla bağlılığını xüsusi araşdırırlar. Burada vurğulanan faktorlar arasında sıx əlaqələrin olduğu önə çəkilir. Bu nəzəri qənaətin prizmasında Azərbaycanın təhlükəsizliyini təmin edən kursa baxsaq, Heydər Əliyevin yüksək səviyyədə xətt müəyyən etdiyini görərik. Həmin xəttin fərqli cəhəti ondan ibarətdir ki, Ulu öndər ölkənin, dövlətin və cəmiyyətin təhlükəsizliyini birbaşa bütövlükdə inkişaf kursunun ana istiqamətləri ilə vəhdətdə götürə bilmişdir. Postsovet məkanı ölkələri üçün bu məsələnin çox mürəkkəb proses olduğu hamıya məlumdur. Çünki həmin məkanda çox sayda maraqlar toqquşur və böyük güclər arasında mübarizə əksər hallarda güzəştsiz savaşa çevrilir.

Cənubi Qafqazda həmin proseslər daha ağır və qeyri-müəyyən şərtlər daxilində baş verir. Xüsusilə, keçən əsrin 90-c illərinin əvvəllərində regionda geosiyasi, siyasi və hərbi vəziyyətin böyük ziddiyyətlər içərisində olduğunu hər kəs xatırlaya bilər. Heydər Əliyev məhz belə bir durumda dövlətimiz və ölkəmiz üçün səmərəli təhlükəsizlik kursunu müəyyən etdi. Sonrakı proseslər göstərdi ki, Ulu öndərin təhlükəsizlik konsepsiyası milli sərhədləri aşaraq regional və regionlararası miqyaslarda da faydalıdır. Bu, liderlikdə çox mühüm faktordur.

Məsələ onunla bağlıdır ki, Heydər Əliyev sabitliyi, əməkdaşlığı və təhlükəsizliyi özündə birləşdirən başlıca mexanizmi dəqiq müəyyən etdi. Həmin mexanizmin üç aspekti vardır.

Birincisi, yeni enerji strategiyası (ona neft siyasəti də deyilir).

İkincisi, cəmiyyətin daxili birliyini təmin etmək kursu.

Üçüncüsü, enerji təhlükəsizliyi ilə milli təhlükəsizliyin vəhdətinin təmini.

Onların hərəkətverici və istiqamətləndirici faktorları isə "Əsrin müqaviləsi" ilə ölkədə həyata keçirilən islahatlar oldu. Bununla Heydər Əliyev dövlət və cəmiyyət olaraq inkişafı milli təhlükəsizliklə sıx bağladı. Bu proses sonrakı mərhələlərdə daha da genişlənərək regional və sonra regionlararası miqyaslara transfer olundu. Bütövlükdə isə Heydər Əliyevin hazırladığı İnkişaf Konsepsiyası Azərbaycanın yeni tarixi mərhələyə keçidi üçün lazım olan bazanı yaratdı.

## Heydər Əliyev fenomeni və yeni tarixi mərhələ

Sözün həqiqi mənasında Ümummilli liderin missiyası və fəaliyyət miqyası yaşadığı müddətlə məhdudlaşmır. Müasir politoloqlara görə, ümummilli liderlikdə özündən sonrakı mərhələdə də inkişafa müsbət mənada təsir etmək qüdrəti aktual yer tutur. Heydər Əliyevin yaratdığı İnkişaf Konsepsiyası Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməyə imkan yaratmışdır. Eyni zamanda, həmin konsepsiya dövlətimizin növbəti inkişaf mərhələlərini müəyyən etməkdə motivəedici, istiqamətverici və məzmunlaşdırıcı rol oynamışdır. Bu gerçəkliyi Prezident İlham Əliyev siyasi varisliyə tam əməl etməsi ilə bağlı söylədiyi fikirlərdə ifadə etmişdir.

Yeni tarixi mərhələnin məzmunu, reallaşma üsulları və məqsədləri siyasi varisliyin təsdiqi və ciddi surətdə saxlanması ilə bağlıdır. Onların hər birində Heydər Əliyevin liderlik fəlsəfəsinin tərkib hissələri vardır. Ulu öndərin yüksək strateji zəkası yeni tarixi mərhələdə də Azərbacan Respublikasının zəfərlər əldə etməsində çox ciddi rol oynayacaqdır!

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# İstanbul missiyası hayları necə yerlərində oturdub?

## *Yaxud 1918-ci ildə Ermənistanın sərhədləri genişləndirmək xəyalları*

**(əvvəli qəzetin 12 dekabr sayında)**

Ermənilərin həmin dövrdə Cənubi Qafqazda baş verən olayları öz xeyirlərinə dəyişdirmək cəhdləri də olmuşdu. Xatisyan və Aharonyan öz xatirələrində Azərbaycan ordusunun Qarabağda uğurlu hərbi əməliyyatlarını türklərin köməyilə dayandırmaq cəhdlərindən də bəhs edirlər. Xatisyan yazır: "Biz Tələt Paşaya türk əsgərlərinin Qarabağa hücumundan şikayət edəndə, o, telefonu götürdü və "ermənilər Qarabağa hücum əmri istəmirlər" deyərək danışmağa başladı. Qarabağa hücumla bağlı Tələtdən sonra Ənvər Paşa ilə də görüşməyə ehtiyac duyduq".

Oktyabrda erməni nümayəndə heyəti Sultan tərəfindən qəbul edildi. "Məsciddə keçirilən dini mərasimdən sonra Ənvər Paşa bizi Sultanla tanış etdi. Dövlət adından danışan Aharonyan müstəqil Ermənistanla Türkiyənin bundan sonra yaxşı qonşu olacağına ümid etdiyini bildirdi. Sultan əsrlər boyu iki xalq arasında dostluq münasibətlərinin bərqərar olduğunu söylədi. O, "ermənilərlə türklər arasında əlaqələr indi Türkiyə ilə Ermənistan arasında siyasi dostluğa çevrilib" – Xatisyan qeyd edir.

Bir neçə gündən sonra Ənvər Paşa erməni nümayəndə heyətini evinə şam yeməyinə dəvət etdi. Xatisyan xatirələrində bu qəbulu belə təsvir edir: "Şərqin bütün əzəməti bizim qarşımızda açıldı. Ənvərin mənzili qızıl, ipək, xalça və hər cür qiymətli əşyalarla dolu idi. Yeməyə alman generalı Fon Sekt, Tələt, İzzət Paşa və Qafqazın üç cümhuriyyətinin nümayəndə heyəti də dəvət olunmuşdu". Xatisyan əlavə edir: "Masa arxasında söhbətin mövzusu yeni qurulan Cənubi Qafqaz respublikalarının gələcəyi barədə oldu".

Ermənilərə həmin görüşdə də başa salınmışdı ki, bölgədə əmin-amanlığın qorunması üçün onlara verilən lütfü düzgün dəyərləndirməli, elan olunan ərazidəki yerli sakinlərin haqlarını tanımalıdırlar. Cənubi Qafqaz respublikalarının sərhəd mübahisələri İstanbulda müzakirə edilməli idi. Ermənistanın iştahası böyük idi. Onlar aşağıdakı variantı təklif etdi: Azərbaycan Zaqafqaziyanın 38 faizini, Gürcüstan 33 faizini, Ermənistan isə 29 faizini almalıdır. Gürcüstan və Azərbaycan nümayəndə heyətləri bu təklifi rədd etdilər. Ermənistan kimi tanınan ərazinin böyük hissəsinin Azərbaycana aid olduğu onların diqqətinə çatdırıldı.



Ermənistan Respublikasının ilk baş naziri və xarici işlər naziri Aleksandr Xatisyanın "Ermənistan Respublikasının doğulması və inkişafı" adlı əsərində tariximiz üçün maraqlı məqamlar var. O yazır: "İstanbula üçüncü səfərimizdə Bəyazıt meydanındakı Hərb Nazirliyinin binasında bizi qarşılayan Ənvər Paşa ilə görüşdük. Böyük qəbul zalına daxil olanda ön divarda qızıl hərflərlə yazılmış şüar diqqətimizi çəkdi: "İstirahətini qılıncın çətiri altında tapacaqsan!".

Ənvər Paşa orta yaşlı, yaraşıqlı adam idi. İlk baxışda sadə, utancaq insan təsiri bağışlayırdı. Sifəti çox sərt, amma bir qədər sakit, gözləri parıltılı və düşüncəli idi. Ümumiyyətlə, o, xarici görünüş etibarilə cəlbedici idi. Ənvərlə söhbət edərkən bizi maraqlandıran aktual məsələlərin üzərindən keçdik: mühacirlər, sərhədlər, konfrans. Ənvər Paşa həmin məsələlərə çox ehtiyatla toxundu: "Xarici narahatlıqlar bizə mühacirlərin işğal altındakı torpaqlara qayıtması üçün sərbəstlik və imkan vermir. Orada yaşayan müsəlmanlar onları görmək istəmir. Ermənilərin təhlükəsizliyinə zəmanət verə bilmərəm. Bir az vaxt keçəcək, onda şərtlər dəyişəcək. Bakıda ordu qurublar, hələ də bizə qarşı vuruşurlar. Zəngəzurda olduğu kimi. Andranik bizə qarşı mübarizəni davam etdirir".

Ənvər Paşa Ermənistanın çox dar sərhədlər çərçivəsində qurulmasına və erməni xalqının tarixi hüquqları ilə bağlı etirazımıza belə cavab verdi: "Ah, mən çox yaxşı bilirəm ki, bir zamanlar arzuladığı azadlığa qovuşmuş xalq bundan heç vaxt vaz keçə bilməz".

Erməni heyəti "bazarlıq etmək" üçün Osmanlının o zamankı Baş naziri İzzət Paşa ilə də görüşmüşdü. Osmanlı ordusunun Brest-Litovsk müqaviləsi ilə müəyyən edilmiş sərhədlərə çəkilməsi ilə bağlı razılıq əldə olunmuşdu. Payızda Osmanlı məmurları torpaq məsələsində şərti dəstək təklif etmişdilər. Ənvər Paşa Aharonyan və Xatisyana Türkiyənin Ermənistanın Lori və Pəmbəklə bağlı fikirlərini müdafiə edəcəyini və onların Brest-Litovsk müqaviləsində nəzərdə tutulan sərhədlərə qədər genişlənməsinə imkan verə biləcəyini bildirmişdi. Əvəzində erməni nümayəndə heyəti Osmanlı hökuməti ilə yaxşı əlaqələr quracağına söz vermişdi.

Ermənistan bu vədinə də əməl etməmişdi. Onlar Osmanlı dövləti büdrəyən kimi onun ərazilərinə girərək Qars vilayətini ələ keçirmişdilər. Türkiyə hökuməti bu əraziləri 1920-ci ilin noyabrında savaşla geri ala bildi. 1919-cu ildə İrəvanda hakimiyyətdə olan Daşnaksütyun partiyası tərəfindən qurulmuş "Nemesis" təşkilatı ermənilərin hüzurlarına getdikləri Osmanlı dövlət adamlarını sui-qəsdlə öldürmək üçün plan hazırlamış və bu plan sonrakı illərdə həyata keçirilmişdi.

Ermənistan eyni şeyi günümüzdə də etməkdədir. Bir tərəfdən Türkiyə ilə diplomatik münasibətlər qurmağı, Ermənistan–Türkiyə sərhədlərinin açılmasını dilə gətiriir, o biri tərəfdən isə qonşu ölkəyə qarşı beynəlxalq müstəvidə düşmənçilik siyasətindən əl çəkmir. Üstündən 100 il keçib, amma hay xisləti dəyişmir.

*Qafar ÇAXMAQLI,*
*XQ-nin Türkiyə müxbiri*

# Əsrin müqaviləsi: “Azəri-Çıraq-Günəşli”də neft hasilatı 600 milyon tona çatdı

(əvvəli 1-ci səhifədə)

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz da bu tarixi nailiyyətlə münasibətini bu şəkildə ifadə edib: “Bu tarixi hadisə AÇG yatağının 30-cu ilində əldə edilmiş növbəti nailiyyətdir. Biz qürur duyuruq ki, ümumilikdə, 600 milyon ton neft təhlükəsiz, etibarlı və ətraf mühit baxımından məsuliyyətli əməliyyatlar nəticəsində əldə olunub. Bu nailiyyət AÇG-nin ölkəyə və bütün maraqlı tərəflərə verdiyi misilsiz töhfənin gözəl ifadəsidir. Bu, həmçinin AÇG-nin uğurunu fədakar əməkləri ilə təmin etmiş öz işinə sadiq minlərlə insanın, əsasən də Azərbaycanlı mütəxəssislərin inanılmaz zəhmətinin təcəssümüdür. Möhtəşəm fəaliyyətlərinə və əməliyyatların təhlükəsiz və etibarlı şəkildə həyata keçirilməsi öhdəliyinə davamlı olaraq sadiq qaldıqlarına görə bütün AÇG heyətinə, xüsusilə də əməliyyatlar qrupuna təşəkkürümü bildirirəm.




“BP-nin strategiyası bugünün enerji sistemlərinə – yəni AÇG kimi yataqların işlənməsinə, və həm də gələcəyin enerji sisteminə sərmayə qoymaqdır. Operator kimi biz AÇG-nin qarşıdan gələn onilliklər ərzində də ölkəyə, Azərbaycan xalqına və tərəfdaşlarımıza töhfə verməsini təmin etmək üçün hökumət və SOCAR-la sıx işləmək öhdəliyimizə sadiqik.”

# Qarabağ və Şərqi Zəngəzur nura qərq olur



(əvvəli 1-ci səhifədə)

“AzərEnerji” yeni 330 kilovoltluq “Cəbrayıl” Enerji Qovşağının, 330 kilovoltluq “İmişli”, “Ağcabədi” və “Gəncə” yarımstansiyalarının da inşasını başa çatdırıb. Nəticədə 110 kilovoltluq 12 yarımstansiyanın dairəvi elektrik təchizatı qurulmaqla 4 istiqamətdə yerləşən 330 kilovoltluq yarımstansiyalardan dairəvi qidalanma gerçəkləşib.

“Yaşıl” enerji zonasına çevrilən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında hazırda ümumi gücü 270 meqavat olan 32 su elektrik stansiyası fəaliyyət göstərir ki, onların istehsal etdiyi enerji regionu təmin edir, artıq qalan enerji isə məhz 2 pilləli dairəvi elektrik təchizatı vasitəsilə ölkənin enerji sisteminə ötürülür.

Qeyd edək ki, 2 pilləli dairəvi elektrik təchizatı 2 dövrəli olmaqla yanaşı, həm də optik şəbəkəlidir. Başqa sözlə, bütün xətlərin üzərindəki ildırımötürücü trosun daxili ilə 24 damarlı fiberoptik kabel xətti çəkilib. Bununla yeni yarımstansiyaların rəqəmsallaşdırılması, optik şəbəkənin yaradılması və SCADA sistemi vasitəsi ilə idarəetmə məsafədən həyata keçirilməsi reallaşıb.

Uzunluğu 1000 kilometrdən çox, gərginlik sinfi 330 və 110 kilovoltluq olan, 2 pilləli və 2 dövrəli dairəvi elektrik təchizat sxemi Qarabağ və Şərqi Zəngəzurun enerji tarixində böyük yenilikdir, bu isə istənilən istiqamətdə qəza olsa belə, fasilə yaranmadan digər istiqamətdən avtomatik və dayanıqlı enerjinin verilməsi deməkdir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarından başlanılmaqla bütün ölkəni əhatə edəcək rəqəmsal texnologiyalarla yarımstansiya və hava xətlərinin monitorinqi və təhlili sistemlərinin qurulması “Azərenerji”nin istismarın təşkilində tətbiq etdiyi növbəti innovativ yenilikdir. Bunun üçün ən müasir rəqəmsal cihaz və qurğular alınıb, yerli gənc mühəndis heyətinin xarici ölkələrdə ixtisasartırma kurslarında iştirakı təmin olunub.

Yeni sistem avtomobil və xüsusi təyinatlı dronlar üzərində quraşdırılmış yüksək dəqiqlikli kameralar və teplovizorlarla elektrik stansiyası, yarımstansiya və xətlərdə görüntülərin əldə edilməsi, emalı və serverə göndərilməsi, lazer texnologiyaları sayəsində ölçülərin, məsafələrin, qızma nöqtələrinin və beləliklə, adi gözlə görünməsi mümkünsüz qəza risklərinin müəyyənləşdirməsini təmin edir.

Yeni sistemin tətbiqi ilə yüksək və sərt dağlıq ərazilərdə olan xətlərin rəqəmsal məlumat bazası yaradılmaqla, qəzaların, qısaqapanmaların, yanğın və zədələnmələrin baş verməsinin qarşısı alınacaq, enerji sisteminin dayanıqlı, etibarlı, səmərəli və təhlükəsiz istismarı təmin ediləcək. Eyni zamanda, dronlar vasitəsilə minalanmış ərazilər də daxil olmaqla çətin relyefdə yeni çəkiləcək xətlərin topoqrafiq planlanma və layihələndirmə işləri həyata keçiriləcək.

# Naxçıvanda Aqrar Sığorta Fondunun filialı



**Bu münasibətlə keçirilən mərasimdə Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini Sarvan Cəfərov aqrar sahəyə göstərilən dövlət dəstəyindən danışıb, aqrar sığortanın fermerlər üçün vacib dəstək mexanizmi olduğunu bildirib. Onun sözlərinə görə, aqrar sığorta vasitəsilə əkin sahələri və heyvanların çoxsaylı risklərdən qorunması təsərrüfatların daha dayanıqlı fəaliyyət göstərməsinə imkan yaradacaq, aqrar sahəyə marağı artıracaq, bununla da ölkənin ərzaq təhlükəsizliyinə töhfə verəcək.**

Tədbirdə Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin vəzifələrini müvəqqəti icra edən, nazir müavini Xəyalə Dadaşova Naxçıvanda aqrar sığortanın tətbiqinin fermerlər üçün mühüm yenilik olduğunu vurğulayıb. Nazir müavininin sözlərinə görə, mürəkkəb iqlim şəraitinə malik olan Naxçıvanda tez-tez baş verən təbiət hadisələri – dolu, qasırğa kimi hallar aqrar təsərrüfatlara və fermerlərə zərər vurur. Bunun qarşısını almaq üçün ən sərfəli üsul dövlət tərəfindən tətbiq edilən aqrar sığortadan faydalanmaqdır.

Aqrar Sığorta Fondunun idarə heyətinin üzvü Roman Əmircanov bildirib ki, aqrar sığorta mexanizmi vasitəsilə 48 növ bitkini, iri və xırdabuynuzlu mal-qaranı, balıqçılıq təsərrüfatlarını sığortalamaq mümkündür. Sığorta haqqının yarısını isə fermerlərə dəstək üçün dövlət özü ödəyir. Nəticədə fermerlər cüzi ödənişlə təsərrüfatlarını sığorta edə bilirlər.

“Aqrar Sığorta müştərək Sığorta Şirkəti” ASC-nin idarə heyətinin sədri Elnarə Abbasova bildirib ki, hazırda ölkə üzrə 400 min hektardan çox əkin sahəsi sığortalanıb. Naxçıvan filialının fəaliyyətə başlaması nəticəsində artıq yerli fermerlər də taxıl sahələrini, meyvə bağlarını, tərəvəz və texniki bitkiləri, eləcə də kənd təsərrüfatı heyvanlarını sığorta edə biləcəklər. Sığorta haqqına 50 faizlik dövlət dəstəyi sayəsində aqrar sığorta fermerlər üçün əlçatandır. Elnarə Abbasova sığortalanma prosesinin sadə olduğunu bildirərək qeyd edib ki, Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində qeydiyyatdan keçmiş istənilən təsərrüfatı sığortalamaq mümkündür.

Mərasimdə çıxış edən digər dövlət qurumlarının nümayəndələri və fermerlər aqrar sığortanın Naxçıvanda fəaliyyətə başlamasının mühüm hadisə, fermerlərə böyük dəstək olduğunu qeyd ediblər. Tədbir iştirakçıları Aqrar Sığorta Fondunun filialı ilə tanış olub, onlara aqrar sığorta məhsulları, məhsul şərtləri, sığorta haqları, sığortalanma və sığorta ödənişi prosesi barədə ətraflı məlumat verilib.

**Asiya İnfrastruktur İnvestisiya Bankı (AİİB) Azərbaycanın günəş enerjisi sahəsinə böyük investisiyalar yatıracağını açıqlayıb. Bankın iqlim strategiyası və siyasəti üzrə baş mütəxəssisi Seleha Lokvud mediaya açıqlamasında bildirib ki, bu addım qurumun iqlim sahəsində fəaliyyət strategiyasında mühüm mərhələdir.**

# AİİB ölkəmizdə günəş enerjisinə sərmayə yönəldəcək

O, AİİB-nin daha geniş iqlim strategiyasının müştərilərlə sıx əməkdaşlıq və strateji tərəfdaşlıqların gücləndirilməsinə yönəldildiyini vurğulayaraq deyib: “Keçən il iqlim üzrə fəaliyyət planımızı yayımladıq. Azərbaycana edilən bu konkret investisiya belə bir yanaşmanın nümunəsidir, çünki biz digər çoxtərəfli inkişaf bankları



və Azərbaycanla əməkdaşlıq edərək enerji prioritetlərini dəstəkləyirik.

S. Lokvudun sözlərinə görə, investisiya həcmi, ümumilikdə, 160 milyon ABŞ dolları təşkil edəcək və bu vəsait 315 meqavatlıq Neftçala və 445 meqavatlıq Biləsuvar günəş elektrik stansiyalarının tikintisinə yönəldiləcək. Sözügedən layihələrin “Abu Dhabi Future Energy Company” (“Masdar”) ilə tərəfdaşlıqda həyata keçirildiyini xatırladan bank rəsmisi deyib ki, yeni günəş elektrik stansiyaları Azərbaycanın bərpaolunan enerji potensialının inkişafına əhəmiyyətli töhfə verəcək: “Bu layihə Azərbaycanın enerji balansını köklü şəkildə dəyişəcək transformasiyaedici bir investisiyadır. Biz bu təşəbbüsün bir hissəsi olmaqdan məmnunuq, çünki o, ölkənin enerji sektorunun gələcəyi üçün strateji əhəmiyyət daşıyır”.

Yeri gəlmişkən, bu layihə Asiya İnkişaf Bankı və Avropa Yenidənqurma və İnkişaf Bankı ilə birgə maliyyələşdirilir. Bununla yanaşı, “SOCAR Green” yerli tərəfdaş kimi bu layihədə “Masdar” şirkəti ilə sıx əməkdaşlıq edəcək. Sözügedən məqama toxunan S.Lokvud bildirib ki, bu addım Asiya İnfrastruktur İnvestisiya Bankının regional əməkdaşlığı inkişaf etdirmək və ölkələrin iqlim məqsədlərinə nail olmasına dəstək olmaq öhdəliyini əks etdirir. Onun sözlərinə görə, banklar və yerli iştirakçılarla tərəfdaşlıq iqlim dəyişikliyi kimi qlobal problemlərin həlli üçün əməkdaşlığın əhəmiyyətini göstərir.

S. Lokvud müsahibəsində dünəş enerjisinə edilən investisiyanın təmsil etdiyi bankın Paris Sazişinə uyğun olaraq “yaşıl” infrastruktura üstünlük verilməsi üzrə daha geniş strategiyası ilə uzlaşdığını diqqətə çatdırıb. Qeyd olunub ki, 2023-cü il iyulun 1-dən etibarən bankın bütün layihələri Paris hədəflərinə uyğunlaşdırılıb və bu investisiya da istisna deyil.

Asiya İnfrastruktur İnvestisiya Bankının layihəyə sadiqliyini vurğulayan baş mütəxəssis təmsil etdiyi qurumun investisiya əməliyyatları üzrə komandasının layihənin icrasının ilk həftəsindən etibarən Azərbaycanda fəaliyyət göstərdiyini bildirib: “Biz artıq buradayıq, Azərbaycandakı həmkarlarımızla əməkdaşlıq edirik və layihənin fasiləsiz irəliləməsini təmin edirik”.

Xatırladaq ki, Asiya İnfrastruktur İnvestisiya Bankı Çin hökumətinin təşəbbüsü ilə yaradılmış beynəlxalq maliyyə institutudur. Mənzil-qərargahı Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində yerləşən bank 2014-cü il oktyabrın 24-də təsis edilib. Həmin gün Asiya qitəsinin 21 ölkəsi bu nəhəng investisiya bankının yaradılması məqsədilə memoranduma imza atıblar.

2015-ci ilin aprel-may aylarında Pekin və Sinqapurda gələcək təsisçi üzvlərinin nümayəndələrinin iştirakı ilə keçirilmiş 4-cü və 5-ci iclaslarda bankın “Maddələr Sazişi”i yekdilliklə razılaşdırılıb. Sözügedən sənəd həmin il iyunun 29-da Çinin paytaxtında təsisçi üzv statusuna malik olan 57 ölkədən 50-si tərəfindən imzalanıb.

Bankın nizamnamə kapitalı 100 milyard ABŞ dolları məbləğində müəyyən olunub. Bunun da, təxminən, 75 faizi Asiya ölkələri tərəfindən təmin ediləcək. Səhmdarları Çin, Hindistan, Rusiya və Azərbaycan olan bankın fəaliyyəti, əsasən, Asiya ölkələrində infrastrukturun inkişafına yönəldilib.

# ÜDM 4 faizdən çox artıb

**Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin 11 ayında ölkədə 113 milyard 282 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,1 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub.**




Bildirilib ki, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,4 faiz, qeyri-neft-qaz sektorunda isə 6,4 faiz artıb. ÜDM istehsalının 37,1 faizi sənaye, 10 faizi ticarət, 7,1 faizi nəqliyyat, 6,2 faizi tikinti, 6,1 faizi kənd təsərrüfatı, 2,5 faizi ictimai iaşə, 1,8 faizi informasiya və rabitə sahələrinin, 19,2 faizi digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 10 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM 11 min 104 manata bərabər olub.

Yeri gəlmişkən, hesabat dövründə ÜDM-in artımını qeyri-neft-qaz sektorunun inkişafı şərtləndirib. Başqa sözlə, respublikada artımın əsas mənbəyini qeyri- neft-qaz sektoru və qeyri-neft-qaz idxalı təşkil edib. Şübhəsiz ki, bu məsələdə xarici investisiyaların, qabaqcıl texnologiyaların və idarəetmə təcrübəsinin də rolu mühüm önəm daşıyıb. Ölkədə bərqərar olmuş siyasi və makroiqtisadi sabitlik, investorların hüquqlarının etibarlı qorunması, əlverişli coğrafi mövqe, zəngin təbii ehtiyatlar, yüksək ixtisaslı işçi qüvvəsi Azərbaycanı xarici sərmayələr üçün ən cəlbedici ölkələrdən birinə çevirib.

# İnvestisiyaların çoxu tikintiyə yönəldilib

**Dövlət Statistika Komitəsindən “XQ”yə verilən məlumata görə, cari ilin yanvar-noyabr aylarında əsas kapitala 15 milyard 910 milyon manat məbləğində investisiya yönəldilib. İstifadə edilən investisiyanın 8 milyard 139 milyon manatı (51,2 faizi) məhsul istehsalına, 5 milyard 618 milyon manatı (35,3 faizi) xidmət sahələrinə, 2 milyard 154 milyon manatı (13,5 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunub.**



Əsas kapitala yönəldilən investisiyaların 13 milyard 66 milyon manatı (82,1 faizi) daxili investisiyalara aid olub, 11 milyard 435 milyon manatı (71,9 faizi) bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf edilib.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Nərgiz Paşayeva: Gözəl alim, nüfuzlu pedaqoq



**Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin (MDU) Bakı filialının rektoru, "Şərəf" ordenli Nərgiz Arif qızı Paşayeva çoxşaxəli elmi-ictimai fəaliyyəti ilə tanınan ziyalı xanımlarımızdan biridir.**

Onun doğum günü ilə bağlı qeydlər edərkən yaradıcı potensialını necə reallaşdırmasına bir daha heyran qaldım. Əməkdar elm xadimi, akademik Nərgiz Paşayeva, eyni zamanda, Bakı Dövlət Universitetinin (BDU) "Klassik Azərbaycan ədəbiyyatı" kafedrasının müdiri, BDU-nun nəzdində fəaliyyət göstərən filologiya elmləri doktoru və fəlsəfə doktoru dissertasiyalarının müdafiəsini keçirən Dissertasiya Şurasının sədri, Azərbaycan Mədəniyyət Fondu İdarə Heyətinin, Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Azərbaycan-İrs" jurnalının ədəbi şöbəsinin redaktoru, ÜNS Yaradıcılıq Səhnəsinin təsisçisi və bədii rəhbəri, "İngiltərə–Azərbaycan Cəmiyyəti"nin həmsədri, Oksford Universitetinin Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin Azərbaycan tərəfindən rəhbəri, Beynəlxalq Nizami Mərkəzinin qurucularından biridir.

O, ilk azərbaycanlı alimdir ki, 2012-ci ildə Böyük Britaniyanın İcmalar Palatasının "Çörçil" zalında, 2013-cü ildə isə Oksford Universitetində "Nizami Gəncəvinin yaradıcılığı və elmi irsi" adlı məruzələrlə çıxış etmişdir. Elə həmin il Oksford Universiteti nəzdində Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin təşəbbüskarı kimi Oksford Universitetinin Şərqşünaslıq Departamentində Memorandum imzalamışdır.

2006-cı ildə ÜNS Bədii Yaradıcılıq Səhnəsini quran akademik Nərgiz Paşayevanın təşəbbüsü ilə "Molla Nəsrəddin" jurnalı yenidən çap olunub, "Səməd Vurğunun xatirələri" kitabı işıq üzü görüb, "Azərbaycan xalq çalğı alətləri" kataloqu elmi-mədəni ictimaiyyətə təqdim olunub. Azərbaycan Mədəniyyəti Dostları Xeyriyyə Fondunun İdarə Heyətinin üzvüdür. Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, Firəngiz Əlizadənin "İntizar" və "Qarabağnamə" operalarının libretto müəllifidir.

Ötən əsrin 90-cı illərində akademik Nərgiz Paşayeva universitet mühitinin yetişdirdiyi, eyni zamanda, o mühitin ənənələrini yaşadan alimlərdən, müəllimlərdən idi. O dövr müəllimlərinin çoxu kimi "azadlığı zərrə-zərrə, qram-qram" deyil, bütöv istəyənlərə şərait yaradır, rektorluqdan "komissiya" gələndə tələbələrini himayə edirdi. Bu, onun yüksək vətəndaş mövqeyi idi. O, çətin zamanda SSRİ Elmlər Akademiyasında şərqşünaslığın problemləri ilə bağlı konfranslarda anası – AMEA-nın Şərqşünaslıq İnstitutunun direktoru, professor Aida İmanquliyeva Dağlıq Qarabağ münaqişəsi, bu təcavüzün başında dayanan erməni və rus fitnəkarlara elmi əsaslar və tarixi dəlillərlə cavab verir, etirazını bildirirdi. Bu həm də o illər idi ki, bütün həyatını Azərbaycanın inkişafına həsr etmiş Heydər Əliyev ucalığına qısqanclıqla yanaşanlar Əliyevlər kimi, Paşayevləri, İmanquliyevləri onunla qohumluq bağlarına görə incidirdilər.

Böyüklərindən cəsarət, qətiyyət əxz edən Nərgiz Paşayeva BDU-da Azərbaycan ədəbiyyatından mühazirələr oxuyur, Sabiri, Mirzə Cəlili, Haqverdiyevi, ümumiyyətlə, "Molla Nəsrəddin" ədəbi məktəbinin təmsilçilərini sevə-sevə tədris edirdi.

Nərgiz Paşayevanın necə cəsarətli ziyalı olduğunu göstərən bir faktı xatırlatmaq istəyirəm: 2007-ci ilin payızı idi. Tehran Universitetinin rektoru başda olmaqla bir qrup alimlə universitetlərarası əməkdaşlıq haqqında protokol imzalanırdı. Mərasimdən sonra hədiyyələr təqdim edildi. İranlı rektor əlindəki çini qabı farsca "Tehran ustalarının əl işidir", – deyib təqdim edərkən akademik Nərgiz Paşayeva tərcüməçini gözləmədən fars dilində də onun sözünə düzəliş etdi: "Hədiyyəyə görə təşəkkür edirəm. Bu, Təbriz miniatür məktəbinə xas olan əl işidir". Onun çəkinmədən, farsca, səlis şəkildə dediyi sözlər bütün tədbir içtirakçılarını heyrətləndirdi. Bu, bir azərbaycanlının üsyanı, zaman-zaman maddi-mədəni irsi fars sənətkarlıq nümunəsi kimi təqdim olunub satılan odlar yurdunun harayı idi. Onun etirazından Mir Cəlalın "Yada satmaram" kəlamının ətri gəlirdi...

BDU-nun beynəlxalq əlaqələrinə akademik Nərgiz Paşayevanın rəhbərlik etdiyi 2006–2008-ci illərdə bu sahə öz qaynarlığı ilə fərqlənib. MDB-nin, İran İslam Respublikasının, Türkiyənin, Avropa və Asiya ölkələrinin elm-tədris mərkəzləri, universitetləri ilə əməkdaşlıq protokolları, memorandumlar imzalanıb. Tələbə, müəllim, aspirant və dissertant mübadiləsi həyata keçirilib. Çoxsaylı qrant layihələri çərçivəsində universitetin maddi-texniki bazası və kadr potensialı inkişaf etdirilib. Xarici ölkələrin Azərbaycanda akkreditə olunan səfirləri, dünyanın nüfuzlu ictimai xadim, tanınmış alim və məşhur yazarları ilə görüşlər təşkil olunub.

Elmi, bədii, publisistik əsərləri, monoqrafiyaları ilə böyük nüfuz qazanan akademik Nərgiz Paşayeva MDU-nun Bakı filialını qurmaqla, təkcə elmin, təhsilin deyil, mədəniyyətlərin, xalqların da inteqrasiyasına, elmi-mədəni əməkdaşlığa təkan vermiş oldu. 266 illik böyük bir tarixi olan MDU-nun filialını Bakıya gətirməklə Güney Qafqazda, ümumən Rusiya–Azərbaycan münasibətlərində yaranan buzu əritmək üçün şərqli hərarətinə ehtiyac olduğunu təsdiqləyərək, narahat dünyamızın nicatının İşığın Qaranlıq, Kamilin Cahil üzərində qələbəsində olduğunu sübut etdi!

Əlbəttə, bu böyüklükdə elm ocağının filialına sıradan bir alim rəhbər şəxs təyin oluna bilməzdi. O, intelektual potensialı, elmi dünyagörüşü, qloballaşan dünyada baş verən proseslərə öz baxış bucağı ilə seçilən, klassik və müasir rus, Azərbaycan və Avropa dəyərlərinə bələd olan mütəfəkkir alim kimi özünü təsdiq etmiş ziyalı, ictimai xadim olmalı idi. Məhz bu səbəbdən də ölkə başçısı cənab İlham Əliyevin 2008-ci il iyunun 23-də imzaladığı sərəncamla Nərgiz Paşayeva MDU-nun Bakı filialına rektor təyin olundu.

Ondan 4 il sonra – sentyabrın 16-da filialın yeni tədris kompleksinin açılışı oldu. Təntənəli mərasimdə Prezident İlham Əliyev, Birinci xanım Mehriban Əliyeva, MDU-nun rektoru Viktor Sadovniçi, habelə ölkəmizin tanınmış ziyalıları, alim və ictimai xadimləri iştirak edirdi.

Akademik Nərgiz Paşayeva hansı məsələdən – ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni, ədəbi-bədii mövzulardan, ümumbəşəri problemlərdən danışırsa-danışsın, o, həmişə mütəfəkkir, böyük fikir və düşüncə sahibi, milli və bəşəri dəyərlərə ehtiram bəsləyən, ədalətli mövqe nümayiş etdirən bir şəxsiyyət kimi görünür. Çünki onun duyğularına, ruhuna Şərq müdrikliyi, Qərb analitik təfəkkürü, yerində qərar vermək, nəticə çıxarmaq kimi keyfiyyətlər hakimdir. Heç şübhəsiz ki, bu da onun intelektual potensialından, genetikasından, yetişdiyi mühitin ona bəxş etdiyi vəziyyətlərdən boy alır. Gerçək olan budur ki, bir şəxsiyyətin formalaşması, özünü dərki, cəmiyyətə təsir imkanına malik olması üçün məkanı, zamanı, mühiti və bunların fövqünə qalxan ustadlarından aldığı dərs xüsusi əhəmiyyət kəsb edir.

Akademik Nərgiz Paşayeva babaları – Mir Cəlal kimi görkəmli yazıçının, milli mətbuatın cəfakeşi olan professor Nəsir İmanquliyevin müdrikliyinə, valideynləri – "Harada ki, sülh var, xeyir var, məhəbbət var, orada Allahın özü var" – deyən professor Aida İmanquliyevanın, Milli Aviasiya Akademiyasının qurucu rektoru akademik Arif Paşayevin genetik kodlarına möhkəm bağlıdır. Böyük bir soyun daşıyıcısı olan Nərgiz xanımın müəllim, alim, ictimai xadim kimi çoxşaxəli fəaliyyətində əldə etdiyi nailiyyətlərin kökündə bu amillər dayanır.

O, "Sabirin novatorluğu", "Müasir Azərbaycan ədəbiyyatında insanın bədii-estetik dərki", "İnsan bədii tədqiq obyekti kimi", "Yeniləşən ədəbiyyatın yeni insanı" monoqrafiyaları, iki hissədən ibarət Qədim Yunan və Qədim Roma ədəbiyyatını əks etdirən "Antik ədəbiyyat tarixi", elmin, publisistikanın vəhdətindən, ilahi sevgidən, övlad məhəbbətindən yaranan "Dünya deyilən sənmişsən" kitabları ilə ədəbiyyatşünaslıq elminə töhfələr verib. Onun digər kitab, monoqrafiya, biblioqrafik kataloqlarına nəinki ölkəmizin, eyni zamanda dünyanın tanınmış elm mərkəzləri tərəfindən yüksək qiymət verilib.

Akademik Nərgiz Paşayevanın təşkilatçılığı və rəhbərliyi ilə gerçəkləşən çoxsaylı beynəlxalq elmi konfrans, simpozium və forumlar onun bəşəri dəyərlərə, sivilizasiyaların, mədəniyyətlərin dialoquna, dəyişən dünyanın maddi-mədəni irsinə ehtiram hissini özündə ehtiva edir. Təsadüfi deyil ki, məhz bu səbəbdən də ona öz vətənində olduğu kimi, dünyanın müxtəlif guşələrində də hörmət göstərilir, mükafatlar verilir. O, AMEA-nın Nizami Gəncəvi adına "Qızıl medal"ına, Azərbaycan Respublikasının "Şərəf" ordeninə layiq görüldüyü kimi, RF-nin dövlət mükafatı olan "Dostluq" ordeni, sivilizasiyalar və mədəniyyətlərarası dialoqa verdiyi töhfələrə görə bu ölkədəki Beynəlxalq Elmi və Mədəni Əməkdaşlıq Mərkəzi tərəfindən Rusiya–Azərbaycan dostluq və əməkdaşlıq münasibətlərində göstərdiyi xidmətlər müqabilində "Dostluqda göstərdiyi xidmətlərə görə" nişanı, Macarıstanın "Xidmətlərə görə" Komandor xaç ordeni, Avropa İqtisadiyyat, Sənaye və Ticarət palatasının "Xidmətlərə görə" Qızıl Ordeni, UNESCO-nun "Mədəniyyətlərin müxtəlifliyinə görə" medalı, "Akademik Palma" fransız ordeni ilə də təltif olunub.

***Şərəf CƏLİLLİ,***
***yazıçı-publisist***

III Milli Pediatriya Konqresi

# Xəstəlik görməsin balalarımız

**Səhiyyə Nazirliyinin dəstəyi və Azərbaycan Pediatriya Cəmiyyətinin təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində III Milli Pediatriya Konqresi keçirilir.**



Azərbaycan Pediatriya Cəmiyyətinin sədri Erkin Rəhimov konqresdə sosial mövzulara daha çox yer verilməsinin əhəmiyyətli olduğunu bildirib. O, Azərbaycan Pediatriya Cəmiyyətinin fəaliyyəti haqqında iştirakçılara ətraflı məlumat verib.

Səhiyyə nazirinin müavini Nadir Zeynalov uşaqların sağlamlığının qorunmasının hər bir ölkə üçün prioritet məsələ olduğunu qeyd edib: "Milli pediatriyanın qarşısında müxtəlif çağırışlar var. Ana və uşaq ölümünün azaldılması, uşaqların psixi sağlamlığının qorunması, gələcəkdə uşaqlarda yarana biləcək problemləri vaxtında aşkar etmək bizim qarşıya qoyduğumuz əsas hədəflərdir. Digər problem isə iqlim dəyişikliyinin və ekoloji problemlərin uşaq sağlamlığına təsirləridir. Düşünürəm ki, konqresdə bu məsələlər müzakirə ediləcək".

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tədqiqatlar və protokolların tətbiqi şöbəsinin müdiri Kəmalə Ağayeva təmsil etdiyi qurum tərəfindən pediatriya sahəsinə xüsusi önəm verildiyini diqqətə çatdırıb. Bildirib ki, TƏBİB uşaqlarda xəstəliklərin diaqnozu, müalicəsi, peyvəndlənməsi sahələrində daha aktiv fəaliyyət göstərməyə çalışır. Əsas hədəf uşaqlar üçün sağlam gələcək yaratmaqdır.

Azərbaycan Tibb Universitetinin prorektoru Məlahət Sultanova, Beynəlxalq Pediatriya Assosiasiyasının icraçı direktoru Aman Pulunqan çıxış ediblər.

Qeyd edək ki, konqresdə pediatrik dermatologiya, pediatriyada tez-tez rast gəlinən qidalanma problemləri və ekstrakorporal müalicələrlə bağlı mövzular müzakirə edilib. Konqres çərçivəsində keçirilən kurslarda 300-dək həkim-pediatr iştirak edir. Məclis 3 gün davam edəcək.

***Z.BƏŞİRQIZI***
***XQ***

# Füzulidə tibbi aksiya

**"Böyük Qayıdış" proqramı çərçivəsində Səhiyyə Nazirliyi işğaldan azad olunan ərazilərə köçürülən vətəndaşlar arasında müxtəlif xəstəliklərin aşkarlanması ilə bağlı əhalinin kompleks müayinələrinin aparılması, tibbi məsləhətlərin verilməsi və sağlamlıqlarının təmin edilməsi məqsədilə silsilə tibbi aksiyaları davam etdirir.**



Nazirliyin təşkilatçılığı ilə keçirilən növbəti belə səyyar müayinə dekabrın 13-də təşkil edilib. Aksiya zamanı Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun əməkdaşları Füzuli şəhərində sakinlər üçün müxtəlif tibbi xidmətlər göstəriblər.

Aksiyanın məqsədi işğaldan azad edilən ərazilərdə məskunlaşan əhalinin mütəmadi olaraq səyyar tibbi müayinələrin keçirilməsi yolu ilə onların sağlamlığını yaxşılaşdırmaqdır. Eyni zamanda, onlara bu sahədə dəstək və yardım göstərilməsi, həmçinin ağciyər sağlamlığının əsas aspektləri və profilaktik tədbirlər haqqında maarifləndirilmələridir. Müayinələr institutun xüsusi təchiz olunan səyyar klinikasında aparılıb. Tibbi avadanlıqların tam dəsti ilə təchiz edilən mobil klinikalar modul avadanlıq konsepsiyası sayəsində müxtəlif məqsədlər üçün istifadə oluna bilər. Fərqli diaqnostik prosedurlardan başlayaraq, ilkin tibbi yardım göstərməyə qədər istifadə edilən klinikalar ucqar ərazilərdə yaşayan əhaliyə tibbi xidmətlərin keyfiyyətini və əlçatanlığını təmin etmək məqsədilə yaradılıb.




Aksiya zamanı Ağciyər Xəstəlikləri İnstitutunun pulmonoloq, ftiziatr, allerqoloq, kardioloq, şüa-diaqnostika həkimi, rentgenoloq və laboratoriya həkimi tərəfindən müxtəlif instrumental-diaqnostik üsullardan istifadə edərək, ağciyərin flüoroqrafiyası, elektrokardioqrafiya, exokardioqrafiya, USM müayinəsi, spirometriya və qan qazının öyrənilməsi həyata keçirilib. Həmçinin, vərəm aşkarlamaq məqsədilə (bəlğəm analizi və latent vərəm infeksiyasının diaqnostikası üçün dəri testləri) ixtisaslaşdırılmış müayinələr aparılıb.

Müayinələr nəticəsində səhhətində problem aşkarlanan şəxslərə tibbi məsləhətlər verilib və müvafiq müalicə təyin olunub. Aksiya zamanı 270-ə yaxın Füzuli sakini müayinə olunub.

Tibbi aksiyada yerli əhaliyə ağciyər xəstəlikləri və profilaktikası haqqında faydalı məlumatlar verilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***Zərifə HÜSEYNOVA***
***XQ***

# BAMF-nin beynəlxalq məsələlər üzrə yeni məsləhətçisi

**Dekabrın 13-də Beynəlxalq Avrasiya Mətbuat Fondunun Himayəçilik Şurasının ilin yekunlarına dair genişləndirilmiş iclası keçirilib.**



BAMF-nin baş ofisində keçirilən görüşdə çıxış edən təşkilatın prezidenti Umud Mirzəyev 2024-cü ildə görülən işlərdən, əldə olunan nəticələrdən və hazırlanma mərhələsində olan illik hesabatdan danışıb. O, ilin əvvəlində qarşıya qoyulan və planlanan fəaliyyətlərin uğurla icra olunduğunu və bütün bunların növbəti ilin yanvar ayında təsdiqlənəcək yekun hesabatda öz əksini tapacağını qeyd edib.

İclasda Albaniyanın Azərbaycanda və Türkiyədəki sabiq səfiri, dövlət xadimi, diplomat Gənci Muçay BAMF-nin beynəlxalq məsələlər üzrə məsləhətçisi seçilib. BAMF-nin Himayəçilik Şurasının sədri Çingiz Abdullayev səfirə BAMF-nin rəsmi vəsiqəsini təqdim edib və bu təyinatın milli və beynəlxalq səviyyədə əhəmiyyətindən danışıb. O, cari ilin sonunda qəbul edilən bu qərarın faydalı olacağını xüsusilə qeyd edib.

Qeyd edək ki, Gənci Muçay 2013-2016-cı illərdə Albaniyanın Azərbaycandakı səfiri olub. O paralel olaraq, Albaniyanın Gürcüstan, İran İslam Respublikası, Pakistan İslam Respublikası və Qırğızıstan Respublikasında qeyri-rezident səfiri vəzifələrini də icra edib. Zəngin bioqrafiyaya malik olan sabiq dövlət xadimi son olaraq Albaniya Prezidentinin xarici məsələlər üzrə köməkçisi vəzifəsində çalışıb.

## Qarabağ gəl-gəl deyir

(əvvəli 1-ci səhifədə)

Bütün bunlara onunla son qoyuldu ki, qisas qiyamətə qalmadı. Azərbaycan Silahlı Qüvvələri Ali Baş Komandan İlham Əliyevin müdrik və qətiyyətli rəhbərliyi ilə döyüş meydanlarında qəddar düşməndən yaralı ürəklərin intiqamını aldılar, 30 il yağı tapdağında qalmış torpaqlarımız xilas edildi. Qanlı savaşla alnımızın qara ləkəsi təmizləndi, qəddimiz dikəldi, başımız ucaldı.

Artıq bir ildən artıqdır ki, Xocalının o ağrılı, dərdli günləri geridə qalıb. İndi yeni doğulmuş körpəyə bənzəyən bu qədim türk yurdunda azad, qayğısız və xoşbəxt gələcəyin möhkəm təməlləri atılır...

# Ballıca didərgin övladlarına qucaq açır

*Xocalının daha bir kəndi sürətlə dirçəldilir*



### Ağdam Xocalıya geniş qapı açır

Əgər yolunuz son vaxtlar Ağdama düşməyibsə, o zaman burada indi görəcəklərinizdən heyrətlənməyə bilməyəcəksiniz. Həyata keçirilən bərpa-quruculuq işlərinin sürəti, həqiqətən, zamanı qabaqlayır. Sonuncu dəfə 1 ay əvvəl olduğum xarabalığı, könül bulandıran şəhərdəki yeni mənzərə sevinc qarışıq bir təəccüb doğurur. İndi başdan-başa yenidən qurulan Ağdamı tanımadıq. Qısamüddətdə nə qədər yeniliklər baş verib. Hər tərəfdən "boylanan" kranları, tikililəri, yollardakı yük maşınlarının, müxtəlif texnikaların "tıxacını" həyəcanlanmadan, qürurlanmadan izləmək mümkün deyil.



Yollardan söz düşmüşkən, Ağdam–Əsgəran–Xocalı–Xankəndi avtomobil yolunun tikintisi də ağlasığmaz sürətlə aparılır. Qeyd edək ki, başlanğıcını Bərdə–Ağdam avtomobil yolundan götürən 33,6 kilometrlik bu yolu Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi çəkir.

Qurumdan verilən məlumata görə, yolun ilk 11,7 kilometrlik hissəsi layihə üzrə II, qalan 21,9 kilometrlik hissəsi isə I texniki dərəcəyə uyğun yenidən qurulur. Torpaq yatağının eni müvafiq olaraq 15 və 26,5 metrdir. Yeni yolun hərəkət hissəsi 2 və 4 zolaqdır. Hazırda torpaq və asfaltlama işləri görülür. Yol boyu müxtəlif diametrli suötürücü boruların yerləşdirilməsi, keçidlərin və 5 körpünün inşası sürətlə davam etdirilir.

İstifadəyə verildikdən sonra Bərdə istiqamətindən Xankəndi, Şuşa və Laçına gedənlər Ağdamın mərkəzinə daxil olmadan bu yolla maneəsiz ötüb keçəcəklər. Rahat, müasir, təhlükəsiz yolun çəkilişi fasiləsiz davam etdirilir. Xocalıya doğru irəlilədikcə, yol tikintisində çalışan insanların necə həvəslə işlədiklərinin şahidi olursan.

### Ballıca – ballı məkan

Qarabağa budəfəki səfərimizin məqsədi Xocalı rayonunun 32 ildir ki, ev-eşiyindən perik düşmüş sakinlərini həsrətlə gözləyən daha bir məntəqəsində – Ballıca kəndində görülən işlərlə tanış olmaq idi. Məlumat üçün bildirək ki, Ballıca kəndi Xocalı və Xankəndi şəhərlərinin arasında, Ballıca çayının sol sahilində yerləşir, "kürəyini" isə dağlara söykəyib.

Kənd adını yanından axan çaydan, çay isə ballıca, yaxud öfkəotu bitkisindən alıb. Ballıca vaxtilə adla deyilən balı ilə də tanınıb. Ola bilsin ki, bu arının ballıca bitkisindən çəkdiyi xüsusi şirə ilə bağlı olub. Bu anlamda Balıca adını ballı məkan kimi də qəbul etmək olar.

Vaxtilə erməni separatçılarının "Ayqestan" adlandırdıqları Ballıca ordumuzun 2023-cü il sentyabrın 19–20-də Qarabağda həyata keçirdiyi lokal antiterror tədbirlərindən sonra düşmən işğalından azad edilib.

Hazırda Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarətmə Xidməti kənddə bərpa işləri aparır, evlər təmir edilərək sakinlərin qayıdışına hazırlanır.

Hər yerdə sürətli abadlaşdırma işləri gedir. Kəndin girişindəki dairə və ətraf yaşıllaşdırılıb, yolların kənarlarında ağaclar əkilib. Dairənin ortasında quraşdırılmış "arı şanı" da kəndin ballı məkan olmasına işarədir. Bu həm də tezliklə kənddə məskunlaşacaq sakinlərin ballıcada balçılığı inkişaf etdirməsinə çağırış kimi səslənir. Doğrudan da, "Ballıca balı"nı brendə çevirmək pis olmaz. Çünki kəndin coğrafi mövqeyi və iqlimi arı saxlamaq üçün çox əlverişlidir.

### İstəklərin qovuşduğu yer

Ballıcanın illərdir ki, baxımsız qalmış, kol-kos basmış yolları da təmizlənir, bərpa edilir, küçələrin asfaltlanması həyata keçirilir. Burada sakinlərin rahat yaşamaları üçün lazımi infrastruktur formalışdırılır. Evlərin təmiri ilə məşğul olan ustalarla söhbət zamanı öyrəndik ki, onlar Xocalıya işləməyə respublikamızın müxtəlif bölgələrindən gəlsələr də hamısını birləşdirən bir istək var – Qarabağımızı yenidən cənnətə çevirmək üçün həyata keçirilən genişmiqyaslı işlərin fəal iştirakçısı olmaq.

Həmsöhbətlərimiz – Ağdam rayonunun Çəmənli kənd sakinləri İlham Həsənov və Qulu Quliyev dedilər ki, azad Xocalıda ustalıq etmək, ev təmiri ilə məşğul olmaq şərəfli, gərəkli olduğu qədər də məsuliyyətlidir. Ölkə Prezidentinin rəhbərliyi ilə aparılan bu proses ən yüksək səviyyədə həyata keçirilir. İlham əlavə etdi ki, gördükləri işin nə qədər əhəmiyyətli olduğunu dərindən başa düşürlər:

– Tezliklə bu kəndə yenidən həyat qayıdacaq. Özü də bura daimi yaşamaq üçün gələnlər erməni vəhşiliyinin əziyyətlərini görmüş, 32 il öz doğma ev-eşiklərindən didərgin düşüb məcburi köçkün həyatı yaşamış insanlardır. Xocalı ilə od-ocaq qonşusu olmuş Ağdam sakinləri kimi onları yaxşı başa düşürük. Odur ki, işimizi keyfiyyətlə görməyi, o insanlara yaxşı şərait yaratmağı özümüzə mənəvi borc bilirik. Hər birimiz burada işləməkdən qurur duyuruq.

Qarabağda görülən işlərin miqyasına baxdıqca xalqımız qürur duyur, bu möhtəşəm işlərin banisi, memarı Prezident İlham Əliyevə minnətdarlığını ifadə edir. Balıcalılar da yurdlarına dönüb əbədi xoşbəxtliklərinə qovuşdular. Xalqımızın bir nisgili və ağrı ünvanı da tarixdə qaldı.

### Köhnə yurdun yeni sakinləri

Dünən növbəti köç karvanı ilə Xocalı rayonunun Ballıca kəndinə çatan ailələrə yeni mənzillərinin açarları təqdim olundu. 27 ailə olmaqla, 152 nəfər keçmiş məcburi köçkün doğma yurduna qovuşdu.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov mənzillərin açarlarını ailələrə təqdim edərək, onlara doğma yurdlarında xoşbəxt və firavan həyat arzuladı. Xocalı sakinləri, keçmiş məcburi köçkünlər 32 ildən sonra öz vətənlərinə qayıtmalarının sevincini yaşadılar, evlərində məskunlaşdılar.

İşğaldan azad olunmuş digər ərazilərdə olduğu kimi, Ballıca kəndində də həyat yenidən canlandı. Bərpa edilən kənd su, qaz, elektrik enerjisi ilə təchiz olunub, internet xətti çəkilib. Tibb və polis məntəqələri üçün binalar, 200 şagird yerlik tam orta məktəb və 35 çarpayılıq uşaq bağçası da sakinlərin ixtiyarına verilib.

Keçmiş məcburi köçkünlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür etdilər. Onlar torpaqlarımızı işğaldan azad edən Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirdilər, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət dilədilər.

Xatırladaq ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda doğma yurda qayıtmış keçmiş məcburi köçkünlərlə yanaşı, bölgədə aparılan layihələri gerçəkləşdirən, xidməti vəzifələrini yerinə yetirən 30 minə yaxın insan yaşayır.

*Mahir RƏSULOĞLU,*
*XQ-nin Qarabağ müxbiri*

**Xocalı**




## COP29-un əks-sədası

# "Yaşıl" konfransın unudulmaz görüşü

*İnsanlar da kitab kimidir...*




**Bəzən yaxşı tanımadığın biri ilə hansı tədbirdəsə görüşüb söhbətləşirsən, yaxud səfərə çıxırsan, sonra həmin adamı tez-tez xatırlayırsan, hətta onunla dostlaşırsan. Elə insanlar da var ki, bir dəfə görüşəndən, yol gedəndən sonra daha üz-üzə gəlmək istəmirsən....**

Kitab var, əlinə alıb bir neçə səhifəsini oxuyursan, ideyası, dili, hadisələrin fəlsəfi yozumu səni elə çəkir ki, yerə qoymaq istəmirsən, iş-gücünü unudursan. Kitab da var, bir neçə səhifəsini oxuyandan sonra, nəfəsin daralır, buna görə də qatlayıb atırsan kənara.

Adam var, barlı budaq kimidir, söz-söhbətini dinləməkdən doymursan, ürəyin sevinir, özünü çox rahat hiss edirsən. Beləsi ilə dünyanın o başına da gedərsən, yoruldum deməzsən.

Qısaca desək, adam var görəndə darıxırsan, adam da var görməyəndə... Əminliklə deyə bilərəm ki, onunla bir neçə dəfə həmsöhbət olanlar Akif müəllimi görməyəndə darıxırlar. Çünki Akif Bağırovun ürəyi zəngindir və hər söhbəti maraqlı kitab kimidir.

Akif Bağırov–Azalp türkoloq alim, şair-tərcüməçidir.

### Qısa bir xatirə və...

Tələbəlikdə qonşu otaqlarda qalırdıq. Axşamlar çox vaxt onların otağına yığışırdıq.

Akif filologiya fakültəsində oxuyurdu. Ədəbiyyat, sənət haqqında mübahisələrdə həmişə "ön cəbhədə" olar və heç vaxt təslim bayrağı qaldırmazdı.

Əlavə edim ki, Akif Naxçıvanın Şahbuz rayonunun Nursu kəndində dünyaya gəlib. Orta məktəbi qızıl medalla bitirib, universitetdə də əlaçı idi. Üçüncü kursdan onu dövlət xəttilə Daşkənd Dövlət Universitetinin özbək dili və ədəbiyyatı fakültəsinə göndərdilər. Və biz tələbə dostları, Akif üçün çox darıxdıq. O, universiteti fərqlənmə diplomu ilə bitirdikdən sonra Özbəkistan Elmlər Akademiyasının Əlişir Nəvai adına Dil və Ədəbiyyat İnstitutunun aspiranturasında oxudu, namizədlik dissertasiyasını vaxtından əvvəl müdafiə elədi və həmin elm ocağında müxtəlif vəzifələrdə çalışdı...

### O, zəngin söz adamı, Turan sevdalısıdır

Akif Azalpın yaradıcılığında elmlə poeziya qoşa qanad kimidir. O, klassik poeziya janrlarında çoxsaylı şeir və poemaların müəllifidir. Bu əsərlərin əksəriyyətinin başlıca ideyası Turan dünyasının zəngin tarixi keçmişini, ədəbiyyat və sənətini yeni nəsillərə çatdırmaq, oxucunu daha işıqlı sabahlara səsləməkdir. Bir şeirində özü də etiraf etdiyi kimi, onun başında daim Turan havası var:

**Bir səs gəlir qayaların bitiyindən,**
**Alp Ər Tüngə, Malay xanın dediyindən,**
**Qurd oxuyur köz-köz şaman duasını,**
**Aya baxıb Tanrı dağın gədiyindən....**
**Nağıl kimi sehirləyir səmanın Qızıl alması,**
**Yazımda Turan havası, qışımda Turan havası!**

O, Azərbaycan, Özbəkistan və Qaraqalpaqıstan xalq artistlərinin ifasında Turan qayəsini ehtiva və təbliğ edən gözəl nəğmələr mətninin müəllifidir. Hər iki ölkədə şair Akif Azalpın özünün iştirakı ilə bir neçə sənədli film çəkilib. Azalpın "Türkdilli poeziyada tuyuq -janrın poetikası və tarixi", "Bədii ideal və tarixi həqiqət" adlı sanballı elmi tədqiqatları ədəbiyyatşünaslıqda uğurlu addımdır və Türk dünyasının görkəmli akademikləri Vahid Zahidov, Həmid Araslı, İzzət Sultan, Vahid Abdullayev, Əziz Kayumov, Cahangir Qəhrəmanov, professorlar Əkrəm Cəfər, Xalıq Koroğlu və başqa alimlər tərəfindən yüksək qiymətləndirilib. Bundan əlavə, o, çoxsaylı elmi məqalələrin müəllifidir.

### Dostluq və zəfər nəğməkarı

Onun poetik ruhu sağlamdır və kökləri pessimizmdən uzaqdır. Buna görə də əksər əsərləri oxucunu yeni həyata, birliyə, dostluğa səsləyir. Elə bu səbəbdən tədqiqatçılar Akif Azalpı dostluq və zəfər nəğməkarı adlandırırlar. Onun "İqbalnamə" trilogiyası – "Öndərnamə", "Zəfərnamə", "Hüma" poemaları fikrimizin təsdiqi üçün yaxşı misal ola bilər və çağdaş Azərbaycan poeziyasında möhtəşəm qələbəmizi tərənnüm edən ən sanballı əsərlərdəndir.

"Mələklərin eşqi", "Cənnət çiçəyi" mənzum dramları haqqında da eyni fikri söyləmək olar. O, türkdilli ədəbiyyatlara bir sıra yeniliklər gətirmişdir. Azərbaycan Yazıçılar Birliyinin şairə ünvanladığı təbrikdə deyildiyi kimi, xüsusən, "Olimp" poemasında və bir çox digər poetik nümunələrində Olimpiya ideallarının və milli idman dəyərlərimizin təsirli tərənnümü onun poeziyamız qarşısında ciddi xidmətlərindən biridir. Məlumat üçün deyək ki, Akif Azalp 2005-ci ildə paytaxtımızda keçirilən I Beynəlxalq Bakı Konfransında bədii uğurlarına görə Azərbaycan Yazıçılar Birliyinin mükafatına, 2014-cü ildə isə Prezident təqaüdünə layiq görülüb.

Onun Azərbaycan, özbək və digər türk dillərində şeir, tərcümə və elmi araşdırmaları da daxil olmaqla səkkiz kitabı nəşr olunub. Həmin kitablardan biri "Özbək xalq şeirindən seçmələr" (2013) adlanır, digəri "Krim-tatar şeirindən seçmələr" (2014) adlanır. Özbəkistan Yazıçılar Uyuşmasının fəxri üzvüdür. A.Azalp Özbəkistanın böyük şairi Əlişir Nəvai, Xalq şairləri Abdulla Aripov, Erkin Vahidov, Osman Əzim, Siracəddin Səyyid, İqbal Mirzə və Rauf Pərfinin bir sıra şeirlərini dilimizə çevirmişdir.

Onun özbək dilində qələmə aldığı məşhur "Salam, dar ağacı" şeiri türkdilli ədəbiyyatlarda çoxsaylı nəzirə və ithafların yazılmasına səbəb olmuşdur:

**Əsirlər qulluqda sultana, bəyə,**
**Hökümlər önündə millənib göyə.**
**Boynunda əcəlin qanlı gültacı,**
**Kimi gözləyirsən?..**
**Salam, dar ağacı, tale ağacı!**

Məlumat üçün deyək ki, "Salam, dar ağacı" şeiri Xalq yazıçısı Anarın hazırladığı "Min beş yüz ilin oğuz şeiri" antologiyasına da salınıb.

Akif Azalp vətənpərvər insandır. O, Özbəkistanda yaşadığı və işlədiyi illərdə (1986–2005) yalnız elmi axtarışlar və ədəbi yaradıcılıqla məşğul olmayıb. Fəaliyyətinin bir hissəsi özbək ziyalıları ilə birlikdə bu respublikadakı erməni lobbisinə qarşı ardıcıl mübarizədən ibarət olub. Onun "Pambıq işi"ni uyduranlara qarşı özbək dilində yazdığı "Özbək nidası" şeiri həmin dövrdə geniş yayılmış və çoxsaylı mitinqlərdə oxunmuşdur. Həmin şeir əks-səda yaratmış və ona çoxlu nəzirə yazılmışdır.

A.Azalp "Heydər Əliyev-90" və "Vətənpərvərlik–2020" respublika müsabiqələrinin qalibidir. Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar iki dost və qardaş ölkə ədəbiyyatlarına xidmətlərini yüksək qiymətləndirərək, onu "Azərbaycan ədəbiyyatının Özbəkistanda və özbək ədəbiyyatının Azərbaycandakı səfiri" adlandırmışdır.

O, Azərbaycan poeziyasından Səməd Vurğun, Rəsul Rza, Nigar Rəfibəyli, Mikayıl Müşfiq, Əli Kərim, Məmməd Araz, Nəriman Həsənzadə, Ramiz Rövşən, Vahid Əziz, Vaqif Bayatlı, Hamlet İsaxanlı və başqalarının şeirlərini özbək dilinə çevirmişdir.

### COP29 günlərində yaddaqalan görüş

Bu il Özbəkistanda yeni nəşrə başlayan "Vətən" jurnalı ilk əlamətdar sayının üzqabığında ölkə Prezidenti Şavkat Mirziyoyevin şəklini və şəkilin altında isə Akif Azalpın "Özbək gəlməkdədir" şeirindən məşhur misralarını vermişdir. Jurnalda ilk yazı kimi də məhz həmin şeir yer almışdır:

**Şövkətin dirçəldib böyük Turanın,**
**Nəsillər kamında mücəssəm canın,**
**Öz dövləti ilə parlaq səfindən**
**Türküstan, Türkiyə, Azərbaycanın**
**Özbək gəlməkdədir tarix təkindən!**

Bu şeir Özbəkistan Prezidentinin diqqətini cəlb etdiyi üçün ötən ay paytaxtımızda uğurla keçən BMT-nin İqlim dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında – COP29-un ilk günlərində iştirak edən qardaş ölkənin lideri Ş. Mirziyoyev noyabrın 13-də Akif Azalpı qəbul etmiş, onun yaradıcılığı ilə yaxından maraqlanmışdır. Akif Azalp da görüşə əliboş getməmişdir. Belə ki, o, görüş zamanı özbək politoloqu Qüdrətulla Rəfiqovun "Şavkat Mirziyoyev fenomeni" kitabının Azərbaycan dilində yenicə çapdan çıxan nüsxəsini hörmətli qonağa təqdim etmişdir. Qeyd edək ki, həmin əsəri dilimizə Akif Azalp və Yaşar Qasımbəyli tərcümə etmişlər.

Prezident bu görüşdən çox məmnun qaldığını dilə gətirmiş və Akif Azalpı Özbəkistana səfərə dəvət etmişdir.

*Səməd MƏLİKZADƏ*

# "Ulduz"lu görüş



**Azərbaycan Dövlət Pedaqoji Universitetində "Ulduz" jurnalı ilə "Xalq qəzeti"nin ortaq layihəsi çərçivəsində ilk "Ulduz"lu görüş keçirilib.**

Görüşü giriş nitqi ilə açan "Ulduz"un baş redaktoru, Əməkdar jurnalist Qulu Ağsəs təhsil ocaqlarında yaradıcı ünsiyyətləri nəzərdə tutan layihə haqda geniş məlumat verərək, bu ilk görüşə görə universitet rəhbərliyinə minnətdarlığını bildirib. Azərbaycan Pedaqoji Universitetinin prorektoru, professor Mahirə Hüseynova qonaqları salamlayaraq, bu kimi görüşlərin xüsusi əhəmiyyətini vurğulayıb, "Ulduz" ədəbiyyat dərgisi ilə təmsil etdiyi ali təhsil ocağının əməkdaşlığı çərçivəsində görülən işləri diqqətə çatdırıb.



Sonra çıxışlar olub. Xalq artisti Eldost Bayram öz növbəsində gələcəyin müəllimlərinə tövsiyə və məsləhətlərini ifadə edib, onlara uğurlar arzulayıb. Eldost Bayramın ifasında Mahirə Hüseynovanın "Gedək uzaqlara" şeiri alqışlarla qarşılanıb.

"Xalq qəzeti"nin baş redaktoru, Əməkdar jurnalist Əflatun Amaşov çıxışında milli-mənəvi dəyərlərə diqqət çəkərək, bu yolda gənclərin məsuliyyətli olmasını tövsiyə edib, mütaliə mədəniyyətinin qorunub-saxlanılmasının əhəmiyyətini vurğulayıb. Filologiya fakültəsinin dekanı, dosent Könül Həsənova yaradıcı görüşün ali təhsil ocağının müəllim və tələbə heyəti üçün xüsusi əhəmiyyət kəsb etdiyini, bu kimi tədbirlərin davamlı olmasının zəruriliyini bildirib.

Yazıçı Təranə Vahid və şair Taleh Mansur öz çıxışlarında ədəbi gəncliyin tribunasına çevrilmiş "Ulduz" jurnalının tarixi və bu günü ilə bağlı məlumat verərək, yaradıcılıq qabiliyyəti olan gəncləri əməkdaşlığa dəvət ediblər. Daha sonra tələbələri maraqlandıran suallar cavablandırılıb. Onların ifasında Qulu Ağsəsin şeirlərindən nümunələr səsləndirilib. Sonda "Ulduz" jurnalının və "Xalq qəzeti"nin seçilmiş sayları hədiyyə olaraq tələbələrə təqdim edilib.

*XQ*

Sərhədləri aşan ədəbiyyat

# Ədəbi əsərlərimiz dünya orbitində

**Azərbaycan ədəbiyyatının xaricdə geniş tanıdılması üçün hələlik hansısa birbaşa dəstək qurumunun olmadığı, naşirlərimizin rəsmi qaydada müəllif kitablarını dünya bazarına çıxarmaq ənənəsinin bərqərar edilmədiyi hazırkı vaxtda hər hansı müəllifin öz kitabını ölkə hüdudlarından kənarda çap etdirə bilməsi təqdirolunandır. Son vaxtlar məhz bu kimi səylərin sayəsində tanınmış qələm sahiblərimizin xaricdə oxucu auditoriyası formalaşır.**

Qardaş Türkiyədə ədəbiyyatın dünyaya çıxarılmasına "dışa açılım" deyilir və əsərlərin xaricdə tanıdılmasına dəstək proqramları var. Ümid edirik ki, tezliklə bizdə də Mədəniyyət nazirliyinin, tərcümə mərkəzlərinin xəttilə ədəbiyyatımızın xaricdə təbliğinə belə yanaşma sərgilənəcək. Hələliksə xaricdə nəşr işləri fərdi qaydada gerçəkləşdirilir və bu sahədəki boşluq elə də dərinləşmir. Bu da var ki, heç də hər yazıçı xaricdəki məşhur nəşriyyatlarla əməkdaşlıq qura, nəşrlərini məşhur internet platformalarına çıxara, böyük kitabxanaların kataloqlarına saldıra, bestseller edə bilmir.

Sona yetməkdə olan 2024-cü ildə nazirliyin, AYB-nin xətti və nəşriyyatlarımızın təşəbbüsü ilə Nizami, Füzuli və digər klassiklərimizin kitabları çap edilib və beynəlxalq sərgi-yarmarkalarda, festivallarda iştirakçılara hədiyyə olunub. Eləcə də bir sıra yazıçımız əsərinin xaricdə çapının sevincini yaşayıb və dostlarına ərməğan edib. Belə təşəbbüslərə bəzi ölkələrdəki səfirliklərimiz, diaspor təşkilatlarımız da qoşulurlar. Əlbəttə, bütün bunlar millətimizin düşüncə tipinin, mədəni-intellektual səviyyəsinin təbliği üçün xüsusilə önəmlidir.

AYB sədri, Xalq yazıçısı Anarın bu barədə söylədiyi fikir həmin aspektdən daim aktualdır: "Dövlətlər və siyasətçilər ölkələr arasında sərhədlər qururlar, yazıçılar və sənət adamları bu sərhədləri aradan götürürlər, insanları bir-birinə yaxınlaşdırırlar. İlk körpü salanlar ədəbiyyatı yaradanlardır". Elə Anar, həmçinin çağdaş Azərbaycan ədəbiyyatının digər ünlü simaları – Elçin, Çingiz Abdullayev, Məmməd İsmayıl və başqaları bu missiyanı layiqincə daşıyan, xaricdə daha çox tanınan yazıçılardır. Estafeti davam etdirən nisbətən sonrakı nəslin təmsilçiləri də xalqları bir-birinə qovuşduran ədəbiyyat körpüsünü, necə deyərlər, işlək halda saxlamağa və artıq xaricdə tanınmağa başlayıblar.




Şair-publisist Rəşad Məcidin Türkiyədə "Şuşa dəftəri" adlı şeirlər kitabı çap olunub. Kitabda müəllifin Şuşa şəhərini tərənnüm edən silsilə şeirləri ilə yanaşı, müxtəlif illərdə qələmə aldığı poetik nümunələr yer alıb. Türk Ədəbiyyatı Vəqfinin nəşr etdirdiyi "Şuşa dəftəri" kitabında yer alan şeirləri Azərbaycan dilindən Türkiyə türkcəsinə "Türk ədəbiyyatı" dərgisinin baş redaktoru İmdat Avşar uyğunlaşdırıb. Kitabın korrektoru isə "Türk ədəbiyyatı" dərgisinin əməkdaşı Səadət Örməci və Enver Uğur Aykoldur.

Bir neçə gün öncə yazıçı-dramaturq, publisist, Əməkdar incəsənət xadimi Elçin Hüseynbəylinin hekayələr kitabı İranda çap olunub. "Babam, nənəm və kommunizm" adlı toplunun tərtibçisi və naşiri Əlyar Poladdır. Bu, yazıçının qonşu ölkədə nəşr olunan sayca üçüncü kitabıdır.

Bu ilin yazında ABŞ-nin Filadelfiya ştatında yaşayan həmyerlimiz Mahizər Cavadovanın uşaqlar üçün nəzərdə tutulmuş "Altayın Novruz macəraları" kitabı ingilis dilində işıq üzü görüb. Bu nəşr xaricdə yaşayan balaca soydaşlarımızın Azərbaycan adət-ənənələrini öyrənməsi, Vətənlə bağlılığının artırılması baxımından əhəmiyyətlidir.

Varisin əsərləri daha əvvəl Türkiyədə, İranda, Özbəkistanda, ABŞ-də də çıxıb, mükafatlara da layiq görülüb. Onun "Gecə reysinə bilet" adlı yeni romanı Moskvada "İSP" nəşriyyatında 5000 tirajla işıq üzü görüb. "Müasirlər və klassiklər" adlanan mötəbər seriyadan nəşr edilən roman dərhal böyük ajiotaj yaradıb. Əsəri Rusiyanın tanınmış qələm sahibləri yüksək qiymətləndiriblər. Bu kitab ölkəmizdə gələn il nəşr olunacaq.

Bu günlərdə istedadlı şair Səlim Babullaoğlunun "Cənub küləyi" adlı seçilmiş şeirlər toplusu "Müasir Azərbaycan poeziyası ingilis dilində" layihəsi çərçivəsində AYB və Türkiyənin İLESAM Birliyinin təqdimatı ilə Ankarada tərcümə ilə çap olunub. Hazırda "Müasir Azərbaycan nəsri ingilis dilində" layihəsi üzrə də işlər gedir.

Cəlilabadda yaşayan istedadlı yazıçı Meyxoş Abdullahın 12 hekayədən ibarət yeni "Altıncı mərtəbə" kitabı isə Misirdə işıq üzü görüb. Hekayələri ərəb dilinə tərcümə edən və onu öz vəsaiti hesabına nəşr etdirən məşhur Misir yazıçısı, şairi, elm xadimi Ashraf Aboul-Yazid Ashraf-Dalidir.

Biz yazarlarımızın bu il xaricdə çap olunmuş kitablarının bir qismini xatırlatdıq. Amma ümumi sayın elə də yetərli olduğunu deyə bilmərik. Arzu edirik ki, yaradıcı təmaslar genişlənsin və gələn il ədiblərimizin əsərləri dünyada ən çox oxunan ispan, ingilis, fransız dillərində ardıcıl təqdim edilsin. Qoy, Azərbaycan ədəbiyyatına dünya yaxından bələd olsun.

*Əli NƏCƏFXANLI*
*XQ*

Novruz Nəcəfoğlu – 70

# Həyatdan qaynaqlanan bədii yaradıcılıq

**Məlumdur ki, bədii yaradıcılıq sahəsində fitri, anadangəlmə bacarıq və qabiliyyət olmadan yazıçı, bəstəkar, aktyor, rəssam... kimi yetişmək mümkün deyil. Əgər yazıçılıq insanla bir doğulmuşsa, o tez-gec əlinə qələm götürüb həyatda gördüklərini, ürəyinin hiss və həyəcanlarını, beyninin fikir və düşüncələrini ağ kağıza köçürməyə başlayacaq. Belə yaradıcı ziyalılardan biri tanınmış qələm sahibi Novruz Nəcəfoğludur.**



O, uzun illər dövlət qulluğunda müxtəlif vəzifələrdə işləməklə zəngin həyat yolu keçib. Novruz müəllimin əmək fəaliyyəti qədər də zəngin ədəbi bioqrafiyası var. Özünü həmişə ədəbi aləmdə məxsusi sözü, yeri olan bir müəllif kimi təsdiq edib. Onun indiyə qədər çap olunmuş müxtəlif janrlı əsərləri, kitabları ədəbi ictimaiyyət və tənqidi fikir tərəfindən layiqincə dəyərləndirilib. Novruz Nəcəfoğlunun yaradıcılığı haqqında professor İslam Qəribli, yazıçı-publisist Aydın Tağıyev, tədqiqatçı-yazıçı Pərvin Nurəliyeva və başqaları məqalələr yazıb, araşdırmalar aparıblar.

Novruz Nəcəfoğlu (Novruzov) 1954-cü ilin may ayının 2-də Lerik rayonunun Zövnə kəndində anadan olub. Gənc yaşlarından ədəbiyyata meyil göstərib, şeir, hekayə, povest və publisistik yazıları ilə mətbuatda müntəzəm çıxış edib. Yazıçının "Bir qış gününün xatirəsi", "Yollar uzanan gün", "Keçən cavan çağım ola…", "Atüstü bir nağıl", "Bir mən oyaqdım", "Çarəsiz yolçu", "Nağıl adam", "Yuxuya gedib gecə" və s. kitabları maraqla qarşılanıb. "İçimdə bir ocaq var" kitabında şeirləri, "Unudulmazlıq haqqı" kitabında oçerkləri toplanıb. Novruz müəllimin "Nəcəflə üz-üzə", "Ən böyük adam", "Tufan" və ingilis dilində çap edilmiş "Tural, Humay və Nicat" kitabları isə balaca oxuculara, onların valideynlərinə, müəllimlərinə gözəl ərməğan olub. Yazıçının "Çarəsiz yolçu", "Bəmbəyaz keçiddə", "Qaranlıq gecənin səsləri" əsərləri qardaş Türkiyə türkcəsində və daha bir kitabı isə rus dilində nəşr edilib.

Pərvin Nurəliyeva yazır: "Bir neçə il öncə Novruz müəllimin "Yuxuya gedib gecə" kitabı "Çağdaş nəsrin ustaları" seriyasından "XAN" nəşriyyatında işıq üzü gördü. Türkiyəli yazıçı-tərcüməçi İmdat Avşar əsəri qısa müddətdə Türkiyə türkcəsinə də çevirdi. Kitab qardaş ölkədə də nəşr olunub böyük maraqla qarşılandı. Həmin əsərin ilk oxucusu olmağın məmnunluğu içərisində kitaba ön söz (44 günlük Zəfər savaşımızdan əvvəl) yazmışdım. Maraqlıdır ki, "Ağ qayadan atılan güllə" əsərinin ideyası da, yozumu da özünü doğrultdu. 44 gün içərisində torpağı düşmən tapdağından azad edən oğullar həm də bu cür əsərlərin yetişdirdiyi nəslin nümayəndələridir. Açarlarını, evlərinin sənədlərini qoruyub saxlayan insanların həsrətinə son qoyuldu, Qarabağ zəfəri ədalətin ən təntənəli qələbəsi oldu. Bu mənada, elə Novruz müəllimin də əsərləri yeni gözlə, qalib ovqatı ilə oxunur".

Novruz Nəcəfoğlunun qələmindən çıxan əsərlərin ən mühüm məziyyəti onların aktual mövzularda geniş ictimai məzmun, parlaq ideya və sənətkarlıq xüsusiyyətlərinə malik olması ilə şərtlənir. Müəllif gözəl, ürəyəyatımlı, həzin duyğuların məhsulu olan lirik şeirlər kimi, mükəmməl kompozisiyaya və bitkin süjetə malik olan epik əsərlər yazmağın da ustasıdır. "Bir qış gününün xatirəsi" kitabındakı şeir və hekayələri buna əyani sübutdur.

Sözügedən topludakı əsərlərin elə adları, sərlövhələri artıq müəllifin yaradıcılıq məziyyətləri haqqında müəyyən təsəvvür yaradır:

Şeirlər – "Bir qala ziyarəti", "Bir kaha önündə", "Bircə sətir yaz", "Dünya", "Dəfn elə", "Gedib", "Bilmədim", "Lirik lövhələr", "Olacaq", "Bayatılar", "Anamın dilindən", "Yollar", "Zaman və biz", "Xeyli vaxtdır", "Tanrı mənim pənahımdı", "Qorun", "Dördlüklər", "Yuxum ərşə çəkilib", "Sevəcəkmi", "Bağışlasın", "Anam eyvandan baxırdı" və s.

Hekayələr – "Atamı oğulsuzmu görübsüz?", "Bir qış gününün xatirəsi", "Yuxu", "Bir ana tanıyırdım", "Tənhalıqdan qorxduğum üçün", "Zalım oğlunu öldürürdüm", "Yalan yeriməsə də...", "Yerisənə!", "Səhra gəmisi" və s.

Novruz Nəcəfoğlunun "Çarəsiz yolçu" povesti isə kənd həyatının rəngarəng çalarlarını əks etdirir. Povestin qəhrəmanları özünəməxsus portret cizgiləri və fərqli xarakterləri ilə bir-birindən seçilirlər. Müəllifin əsərlərindəki obrazlar ətrafımızda olan, gündəlik həyatda gördüyümüz, rast gəldiyimiz real insanlardır. Bu obrazları bizə sevdirən onların hər birinin özəl xüsusiyyətlərə, yüksək mənəvi-əxlaqi keyfiyyətlərə malik olmasıdır.

Bir dövlət məmuru kimi xarici ölkələrə səyahətdən aldığı səfər təəssüratları əsasında onun yazdığı "Dünya duracaq yer deyil", "Sinqapur – böyük dünya şəhəri, iddialı ölkə", "Gördüyüm və eşitdiyim Yaponiya" publisistik kitabları səfərnamə janrında diqqətəlayiq nümunələrdir.

Bu qəbildən olan "Eşitdiyim və gördüyüm Yaponiya" adlı publisistik əsəri ilə bağlı Novruz müəllim özü belə yazır: "Hər dəfə müxtəlif ölkələrə – dəqiqliyi ilə desəm, bundan əvvəl Almaniyaya, İsveçrəyə, Sinqapura, Malayziyaya səfərlərdən qayıdan kimi yol təəssüratlarımı, gördüklərimi əlbəəl, necə deyərlər, isti-isti qələmə almışam. Yaponiyaya səfərimizdən isə uzun müddət keçsə də, nədənsə, bu dəfə cib dəftərçəmə əl gəzdirib yaddaşımdakıları ağ vərəqlərə köçürməyə tələsmirdim. Bəlkə də, bu, o səfər təəssüratlarımın zənginliyindən idi ki, sözümü hardan başlayıb harda tamamlamaqda, açığı, çətinlik çəkirdim. Uzaq Gündoğar ölkədə 10 gün bir yerdə olduğum səfər yoldaşlarım hər dəfə müxtəlif tədbirlərdə, görüşlərdə üzə vurmasalar da, elə baxışlarından hiss edirdim ki, bundan əvvəlki ölkələrə işgüzar səfərlərdə olduğu kimi, bu dəfə də Yaponiya səfərimiz haqqında yazacaqlarımın araya-ərsəyə gəlməyini gözləyirlər". Nəhayət, elə də oldu və Novruz Nəcəfoğlu daha bir uğurlu səfərnamə ilə oxucularını sevindirdi.

Yazıçının son illər çap etdirdiyi "Kişilərin ömür yolu" silsiləsindən "Yaddaşıma yazılan gün", "Ötən günlər" dəftərindən "Arıtsan sel olar kor bulaqdan..." və "Yağışda dayanacaqdakı qadın" əsərləri də göstərir ki, onun həyati müşahidələri ictimai-mənəvi müstəviyə yönəlməklə sosial-etik mahiyyət kəsb edir. Yazıçı gördüklərini, təəssüratlarını bədii sözə, publisistik təsvir və lirik düşüncələrə çevirə bilir, həmişə hadisə və əhvalatların arxasındakı insanlararası mənəvi-psixoloji münasibətləri aşkarlayıb tapmağa can atmaqla, obrazların, qəhrəmanlarının daxili-ruhi aləmini oxucu üçün kəşf edə bilir.

Ömrünün 70 ilini arxada qoyan Novruz Nəcəfoğlu şəxsi həyatının, ictimai fəaliyyətinin, müdriklik zirvəsindədir. Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin, Türkiyə elm və ədəbiyyat birliyi olan "İlesam" təşkilatının üzvüdür. Onun bir neçə şeirinə musiqi bəstələnib. Bir sıra beynəlxalq mükafatların laureatıdır, 2014-cü ildə "Şöhrət" ordeni ilə təltif edilib. Yazıçı-publisist, şair kimi, o, geniş oxucu auditoriyasının sevgisini də özü üçün mükafat sayır.

***Rasim NƏBİOĞLU,***
***AMEA Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, fəxri professor***

# TDT Milli Kitabxanalar birliyi fəallaşır

**Azərbaycan Milli Kitabxanası cari ildə önəmli tədbirlərin keçirilməsi, sərgilərin açılması, yeni kitabların nəşri sahəsində fəaliyyətini genişləndirib. Bizimlə söhbətində kitabxananın direktoru, Əməkdar mədəniyyət işçisi, professor Kərim Tahirov bu barədə danışdı:**

– Tədbirlərimiz əsasən Prezident İlham Əliyevin 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etməsi və Azərbaycan Tərəflər Konfransının noyabrda Bakıda keçirilən 29-cu sessiyasına (COP29) aid olub. İlin əvvəlində kitabxanada "Yaşıl dünya naminə həmrəylik ili" mövzusunda müvafiq sahəyə dair ədəbiyyatdan ibarət daimi guşə açdıq, eləcə də elektron məlumat bazası onlayn rejimdə istifadəçilərə təqdim edildi. May ayında "Yaşıl dünya naminə" daycet hazırlanıb. Oktyabr ayında isə "Yaşıl dünya naminə həmrəylik ili" mövzusunda "Azərbaycan ekologiyası" biblioqrafik kitabı nəşr edilib.

Kitabxanada Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı daimi guşə yaradılıb. Burada Şuşaya aid virtual sərgilər onlayn rejimdə istifadəçilərə təqdim olunub. Həmçinin Naxçıvan Muxtar Respublikasının 100, Məhəmməd Əmin Rəsulzadənin 140, Məhəmməd Füzulinin 530, Nəbi Xəzrinin 100 illik yubilikləri ilə bağlı ənənəvi və virtual sərgilər, guşələr açılıb, kitablar nəşr edilib, tədbirlər keçirilib.

Cari ildə Milli Kitabxana ölkədaxili və dünya miqyasında keçirilən beynəlxalq tədbirlərin iştirakçısı olub. Qətərdə, Özbəkistanda, Qazaxıstanda keçirilən mədəniyyət günləri çərçivəsində kitab sərgiləri açılıb, tədbirlər keçirilib.

**– Kərim müəllim, bu yaxınlarda Milli Kitabxanada Türk Dünyası Milli Kitabxanalar Birliyinin iclası olub və siz sədr seçilmisiniz. İstərdim, birliklə bağlı planlarınızdan danışasınız.**

– Bu istiqamətdə işlərimiz çoxdur. Birliyin sədri kimi mənim namizədliyim təklif edildi və yekdilliklə qəbul olundu. Eyni zamanda, Birliyin idarəedici orqanı olan Direktorlar Şurası da yaradıldı. Qeyd edim ki, 1993-cü ildən bəri təşkilatın Türkiyədə, Azərbaycanda, Qazaxıstanda, Qırğızıstanda dəfələrlə iclasları keçirilsə də, rəsmi



şəkildə qeydə alınmamışdı. İlk işimiz təşkilatı qeydiyyatdan keçirməklə ona rəsmi status vermək oldu. Təşkilatın əsas vəzifəsi Türk dünyasının, türkdilli xalqların milli-mənəvi dəyərlərinin qorunub saxlanılmasında, gələcək nəsillərə çatdırılmasında çox böyük rol oynayan milli kitabxanaların fəaliyyətinin əlaqələndirilməsi, onların birgə müxtəlif layihələr həyata keçirməsi və türk mədəniyyətinin, irsinin dünya miqyasında daha geniş təbliğ olunmasıdır.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

# "Elm və ali təhsilin beynəlmiləlləşməsi"

**Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin təşkilatçılığı ilə "Elm və ali təhsilin beynəlmiləlləşməsi" mövzusunda forum keçirilib. Mərasimdə elm və təhsil naziri Emin Əmrullayev, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, müvafiq dövlət qurumları, elm və ali təhsil müəssisələrinin rəhbər və nümayəndələri, eləcə də xarici tələbələr və onların təhsilinin təşkili üzrə məsul əməkdaşları iştirak ediblər.**

Elm və təhsil naziri Emin Əmrullayev universitetlərimizin beynəlxalq reytinqinin yüksəldilməsi, ali təhsil müəssisələrində tədqiqat prosesinin stimullaşdırılması, ölkədə elmin inkişafı istiqamətində fəaliyyətin təşkili və digər məsələlərə toxunub.

Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru Ülkər Səttarova elm və ali təhsilin beynəlmiləlləşməsi baxımından forumun məqsədi və önəmini vurğulayıb. Xarici işlər nazirinin müavini Yalçın Rəfiyev beynəlxalq tələbələrin ölkəmizdə təhsilinin ölkələrarası ictimai diplomatiya aləti kimi önəmini vurğulayıb və "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı"nın bu prosesə verdiyi töhfəni qeyd edib.

Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Müjdat Həsənov elm və ali təhsilin beynəlmiləlləşməsi sahəsində görülən işlərə dair statistik hesabatla çıxış edib.

Rəsmi hissə "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramı çərçivəsində təhsil almaq hüququ qazanmış xarici tələbələrə təqaüd sertifikatlarının təqdim olunması ilə başa çatıb. "Elmi universitetə necə gətirməli?" və "Ali təhsilin beynəlmiləlləşməsi" mövzuları üzrə panel sessiyalarda keçirilib.

Sonda beynəlxalq tələbələrlə iş üzrə fərqlənən bir neçə elm və ali təhsil müəssisəsi, eləcə də akademik göstəriciləri, ictimai fəallığı və doktorantura üzrə elmi məqalələrin dərci sahəsində fərqlənən xarici tələbələr təltif edilib.

*XQ*

# Gürcüstan: Prezident seçkiləri öncəsi “siyasi hərarət” artıb

*Sabiq futbolçu yüksək post uğrunda mübarizə aparır, müxalifət isə səsverməni pozmaq istəyir*



**Bu gün Gürcüstanda növbədənkənar prezident seçkiləri keçirilir. Ölkə tarixində ilk dəfə ümumi səsverməyə ehtiyac olmayacaq. Dövlət başçısını parlament və yerli şuraların üzvləri seçəcəklər. Müxalifət isə hakim partiyaya mane olmaq barədə düşünür. İndiki Prezident Salome Zurabişvili postunu tərk etmək niyyətində olmadığını bəyan edib.**

### Kollegiyanın səsvermə proseduru və yetərsay

7 il əvvəl Gürcüstanda konstitusiya islahatları aparılıb. O zaman qəbul edilən və prezidentin səlahiyyətlərini azaldan Konstitusiyaya əsasən, bundan əvvəlki seçkilər sonuncu prezident seçkiləri olub. Hazırda dövlət başçısını 300 nəfərdən ibarət xüsusi seçki kollegiyası seçəcək. Ən azı 15 il Gürcüstanda yaşayan, yaşı 40-dan yuxarı olan ölkə vətəndaşı prezident seçilə bilər (“seçkilərə qədər son 3 il ərzində ölkədə daimi yaşamaq” tələbi aradan götürülüb).

Birinci turda qalib gəlmək üçün namizəd kollegiyanın ən azı 200 üzvünün səsini qazanmalıdır. Hazırda hakim partiya 156 seçiciyə arxalana bilər. Müxalifət olsa da, Aİ və ABŞ-ı tənqid edib. İki il əvvəl “Xarici agentlər haqqında” qanun layihəsinin təşəbbüskarlarından biri olub. Müxaliflər isə diqqəti iqtidarın dövlət başçısı postuna real namizədinin ali təhsilli olmamasına yönəldib. Bildirib ki, Gürcüstan parlamentinin saytında müvafiq qrafa boşdur. Bundan əlavə, Kavelaşvili heç vaxt məşhur siyasətçilərin reytinq siyahısına düşməyib.

“Gürcü Arzusu” müxalifətin iddialarına belə cavab verib: “Ən yüksək posta namizəd “diplomsuz da çoxlarından savadlıdır və ölkəsini səmimi qəlbdən sevir”. Konstitusiyada dövlət başçısının mütləq ali təsilli olması barədə maddə yoxdur”.

Maraqlı fakt: Mixail Kavelaşvili 2015-ci ildə Gürcüstan Futbol Federasiyasının prezidentliyinə iddialı olsa

Parlament sədrinin müavini Nino Tsilosani xəbərdarlıq edib ki, Zurabişvili israr etsə, “minlərlə qəzəbli vətəndaş” onu binanı tərk etməyə məcbur edəcək.

### Etirazlar ara vermir

Tbilisinin küçələrində toqquşmalar hələ də davam edir. Etirazçılar təhlükəsizlik qüvvələrinə daş atır, pirotexniki vasitələri işə salır, polis isə gözyaşardıcı qaz və su şırnaqlarından istifadə edir. Hər iki tərəfdən çoxsayda zərərçəkən var. 400-dən çox insan saxlanılıb, 30 etirazçı isə məhkəməyə verilib.

Gürcüstanın Dövlət Təhlükəsizliyi Xidməti bildirib ki, radikal müxalifət seçkiləri pozmağa və ölkədə iğtişaşlar törətməyə cəhd edəcək. “Müxalifət vəziyyəti mümkün qədər gərginləşdirmək, sonra isə, guya, iki və ya üç nəfərin ölməsi ehtimalını nəzərdən keçirir. Ölüm hadisəsində hökuməti ittiham etmək, radikal əhval-ruhiyyəni qızışdırmaq və etiraz aksiyalarını gücləndirmək istəyirlər. Onların planına görə, bu, ölkədə xaosa aparıb çıxarmalıdır”.

### Ekspertlər nə deyirlər?

Gürcüstan parlamentinin sabiq üzvü Petre Mamradze hesab edir ki, seçki prosedurunun özü heç bir sürpriz olmadan keçəcək və hakim partiyanın namizədi yeni dövlət başçısı olacaq: “Bütün proqnozlara görə, “Gürcü arzusu” öz namizədini sakitliklə seçəcək. Eyni zamanda vətəndaşlarımıza xəbərdarlıq edirəm ki, yaxın günlərdə, xüsusilə ayın-sayıq olsunlar. Müxalifətin aksiyaları sönür, “Maydan” işləmir. Müxalifətin mitinqlərə yeni nəfəs gətirmələri lazımdır, bunun üçün ən yaxşı üsul insanların ölümüdür. Mən hamını Dövlət Təhlükəsizliyi Xidmətinin bəyanatına qulaq asmağa və heç bir təxribata uymamağa çağırıram”.



lifətin 124 tərəfdarı var, daha 20 nəfər bitərəfdir. İqtidar partiyasının tərəfdarlarının sayı namizədinin birinci turda qalib gəlməsi üçün kifayət etməyə bilər. Konstitusiyaya görə, birinci turda qalib müəyyənləşməsə, ikinci tur keçirilməlidir. Bu mərhələdə hakim partiya uğura arxalana bilər. Çünki sadə səs çoxluğu kifayət edəcək.

Parlamentin spikeri Şalva Papuaşvili bildirib ki, ilk tur uğursuz olarsa, 2-ci tur eyni gündə baş tutacaq. Yəni Gürcüstanın yeni prezidentinin adı istənilən halda bu gün məlum olacaq.

### İqtidarın namizədi sabiq futbolçudur

Hakim partiya prezidentliyə parlamentin deputatı və sabiq futbolçu Mixail Kavelaşvilinin namizədliyini irəli sürüb. “Gürcü Arzusu”nun təsisçisi Bidzina İvanişvili onun barəsində deyib: “O, ədaləti, dürüstlüyü, vətənpərvərliyi və düzgünlüyü ilə seçilir. Kavelaşvili gürcü kişisinin ən yaxşı təcəssümü, sadiq həyat yoldaşı və dörd uşaq atasıdır. Əminəm ki, Mixail Kavelaşvili müvəqqəti olaraq prezidentlik institutunun itirdiyi ləyaqəti geri qaytaracaq. Komanda onun namizədliyi ilə bağlı yekdil qərar qəbul edib”.

Xatırladaq ki, Kavelaşvili 2016-cı ildə Gürcüstan parlamentinə seçilib. O, davamlı olaraq milli və ənənəvi dəyərləri dəstəkləyib. Avrointeqrasiyanın tərəfdarı da, ali təhsili olmadığı üçün seçkilərdə iştirak edə bilməyib. Həmin vaxt deyib: “Sovetlər İttifaqı dövründə elə bir sistem var idi ki, futbolçunun ali təhsil alması mümkün deyildi. Bu təcrübə bütün dünyada mövcuddur. UEFA prezidenti Platininin də ali təhsili yox idi. Düşünürəm ki, bu, mənə qarşı qərəzli qərardır”.

Prezident seçkisində isə Kavelaşvilinin rəqibi olmayacaq. Müxalifət partiyaları nəinki öz namizədlərini irəli sürməyib, hətta səsvermədə iştirakdan imtina ediblər.

### Qarşıdurma yüksəlib

Səsvermənin nəticəsi əvvəlcədən məlum kimi görünür. Amma, deyəsən, siyasi qarşıdurmanın qarşısını almaq mümkün olmayacaq. Məsələ burasındadır ki, müxalifət liderlərindən biri, Pezident Salome Zurabişvili postunu tərk etmək niyyətində deyil: “Mənim mandatım ölkədə əsl parlament formalaşanadək davam edəcək”.

Hakim partiya buna cavab olaraq bildirib ki, Zurabişvili istənilən halda prezident postunu tərk etməli olacaq. Baş nazir İrakli Kobaxidze deyib: “Mən onun emosional vəziyyətini başa düşürəm, lakin dekabrın 29-da inauqurasiya keçiriləcək. O, iqamətgahı tərk etməli, binanı yeni seçilmiş liderə verməli olacaq”.

O əlavə edib ki, hazırkı Prezident Zurabişvili istənilən halda postunu tərk etməli olacaq. “Çox qəribə açıqlamalar verir. Səlahiyyətləri bütün qanunvericilik normaları üzrə başa çatır. Parlamentin hazırkı tərkibini tanımaması isə heç kimi narahat etmir. Ola bilsin ki, onun ağlı başında olub, prezident sarayını təkbaşına tərk edəcək. Amma istisna etmirəm ki, təhlükəsizlik qüvvələri onu iqamətgahdan zorla çıxaranda parlaq performansını görəcəyik”.

Postsovet Araşdırmaları Mərkəzinin Qafqaz sektorunun baş elmi işçisi Aleksandr Krılov hesab edir ki, müxalifət dekabrın 14-dək öz tərəfdarlarını səfərbər etməyə çalışacaq: “Yəqin ki, hansısa təxribatların, hansısa qurbanların ictimaiyyətə təqdim edilməsi cəhdlərinin şahidi olacağıq. Ümid edirəm ki, hüquq-mühafizə orqanları sakit və səmərəli fəaliyyət göstərdikcə bütün bu cəhdlər uğursuz olacaq. Düşünürəm ki, seçkilərdən və yeni prezidentin andiçmə mərasimindən sonra müxalifətin mitinqləri səngiməyə başlayacaq. Ölkədə etirazçılara külləvi dəstək yoxdur. Salome Zurabişvilinin özü təhlükəsizliyini, iqamətgahını və digər imtiyazlarını itirəcək və çox güman ki, bundan sonra ölkəni tərk edərək Parisdə və ya Brüsseldə yerləşəcək”.

*Hazırladı:*
***P.ƏFƏNDİYEV***
***XQ***

# Ulu öndərin xatirəsi İslamabadda anılıb



**Azərbaycanın Pakistandakı səfirliyində ümummilli lider Heydər Əliyevin əziz xatirəsi dərin ehtiramla yad edilib, büstü önünə gül dəstələri qoyulub.**

Azərbaycanın Pakistandakı səfiri Xəzər Fərhadov çıxış edərək, həyatını Azərbaycanın tərəqqisinə həsr etmiş Heydər Əliyevin vəfatından 21 il ötməsinə baxmayaraq, Ulu öndərin əziz xatirəsinin azərbaycanlıların ürəyində daimi yaşadığını vurğulayıb. Diplomat bildirib ki, müasir Azərbaycanın inkişafının və azərbaycançılıq ideyasının qorunub saxlanmasının kökündə məhz Heydər Əliyevin müdrik siyasəti dayanır. Qeyd olunub ki, Azərbaycan xalqı hər zaman ümummilli lider Heydər Əliyevin xatirəsini əziz tutacaq.

Ümummilli liderin anım günü münasibətilə səfirliyin əməkdaşları İslamabad şəhərində fəaliyyət göstərən Talassemiya Mərkəzinə gediblər. Onlar mərkəzin tibb heyəti, pasiyentlər və ailə üzvləri ilə görüşüblər. Görüş zamanı ulu öndər Heydər Əliyevin əziz xatirəsi anılıb, Azərbaycanın inkişafı və Pakistanla münasibətlərinin təməlinin qoyulmasında əvəzsiz töhfələri barədə məlumat verilib, səfirlik tərəfindən hazırlanan yardım paketləri mərkəzə təqdim edilib.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***
**Daşkənd**

# “Qarabağ” qalan iki oyunda qələbə qazansa belə…



**“Qarabağ” ötən UEFA Avropa Liqasında tarixində ilk dəfə 1/8 finala çıxmaqla azərbaycanlı futbolsevərləri növbəti mövsüm üçün ümidləndirmişdi. Amma alınmır – Azərbaycan çempionu nə həsrətində olduğu Çempionlar Liqasına düşdü, nə də qitənin səviyyəcə 2-ci klub turnirində uğurlu çıxışını davam etdirə bilir.**

Bu mövsümdən avroklublar yeni formatda keçirilir – Çempionlar Liqası və Avropa Liqasında komandalar səkkiz müxtəlif rəqiblə qarşılaşırlar. Görünür, bu da “Qarabağ”ın çıxışına öz təsirini göstərir, sanki komanda bu formata uyğunlaşmayıb.

6 oyundan sonra hesabında cəmi 3 xal olan və 33-cü yerdə qərarlaşan “Qarabağ” pley-offa çıxmaq işini çətinə salıb. Liqa mərhələsinin başa çatmasına isə cəmi iki tur qalıb.

Hazırda “Qarabağ” turnir cədvəlində yalnız RFS (2 xal), “Nitsa” (2) və Kiyev “Dinamo”sunu (0) qabaqlayır. Əlbəttə, larına görə, pley-offa düşmək üçün azı 10 xal toplamaq lazımdır və 9 xal belə kifayət etməyə bilər.

Bu da o deməkdir ki, “Qarabağ” qarşıdakı iki oyunun hər birində qələbə qazanmaqla xalını 9-a çatdırmalı və digər komandaların nəticələrinə baxmalıdır. Növbəti rəqiblər isə 11 xalla 10-cu yerdə olan FCSB (Rumıniya) və 9 xalla 15-ci pillədə qərarlaşan “Olimpiakos”dur (Yunanıstan): birinci qarşılaşma Bakıda, sonuncu isə səfərdə olacaq.

Yeri gəlmişkən, yekunda Avropa Liqasında xalları bərabər olan komandalarda



Ukraynanın adlı-sanlı klubundan irəlidə olmaq diqqəti çəksə də, indiki halda bu, təsəllidən başqa bir şey deyil.

Azərbaycan çempionu növbəti mərhələyə vəsiqə verən ilk 24-lükdən 4 xal geri qalır. “Elfsborq” isə “Qarabağ”a qalib gəlməklə (1:0) məhz 24-cü yerə yüksəlib və 7 xalı var. Bu iki komanda arasında yer alan “Braqa” (7 xal), “Hoffenhaym” (6), “Makkabi Tel-Əviv” (6), “Beşiktaş” (6), “Slaviya Praqa” (4), “Tvente” (4), “Malmö” (4) və “Ludoqorets” (3) də elə ilk 24-lüyə düşməyə çalışırlar.

Yarışdan əvvəl “Opta”nın hesablamatop fərqi əsas götürüləcək ki, “Qarabağ” hazırda “-10” ilə yalnız “-14” göstəricisinə malik Kiyev “Dinamo”sundan üstündür.

“Qarabağ” və qarşıdakı rəqiblərinin növbəti oyunları:

7-ci tur, 23 yanvar 2025 – Portu (Portuqaliya) - Olimpiakos (Yunanıstan); “Qarabağ” - FCSB (Rumıniya).

8-ci tur, 30 yanvar – Olimpiakos (Yunanıstan) – “Qarabağ”.

***Rasim MÖVSÜMZADƏ***

Xalq qəzeti

XQ

xalqqazeti.az

№ 276 (30680) 14 dekabr 2024-cü il, şənbə


## Donald Tramp "İlin adamı" oldu

**"Time" jurnalı ABŞ-nin yeni seçilmiş Prezidenti Donald Trampa "İlin adamı" adını verib. Bu ənənə nəşr tərəfindən 1927-ci ildən davam edir. Redaksiya bu titulu son 12 ay ərzində dünyada daha çox nüfuz sahibi olan şəxsə verir.**



Qeyd edək ki, bu il fəxri ad üçün 10 nəfər şəxs namizədliyini irəli sürüb. Onların arasında "SpaceX" və "Tesla"nın qurucusu İlon Mask, ABŞ-nin ilk qadın vitse-prezidenti Kamala Harris, "Meta"nın rəhbəri Mark Zuckerberq kimi məşhur şəxslərin adları yer alır.

*XQ*


# OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

*2025-ci il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*


8 NOYABR ZƏFƏR GÜNÜDÜR!
Xalq qəzeti
44 günlük Vətən müharibəsi 33 illik Qarabağ münaqişəsinə son qoydu
"Qlobal oyun"da möhtəşəm Azərbaycan Zəfəri
Qarabağ Zəfərinin dərsləri
Bakı Media Mərkəzi COP29-un rəsmi yayım şirkəti olacaq

**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat səksən qəpik) manat.

**Hörmətli abunəçilər!**
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


## "Böyük sənət hamisi"

**Azərbaycan Milli İncəsənət Muzeyində Ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş "Ulu öndər Heydər Əliyev və Azərbaycan rəssamlığı" mövzusunda mühazirə keçirilib.**



Muzeyin sərgi və tərtibat şöbəsinin müdiri, sənətşünas Əsəd Quliyev tərəfindən təqdim olunan mühazirədə görkəmli dövlət xadimi, müasir Azərbaycanın memarı Heydər Əliyevin incəsənətə, sənət insanlarına göstərdiyi qayğı, və diqqətdən, mədəniyyət sahəsində həyata keçirdiyi böyük tədbir və layihələrdən, rəssam-heykəltəraşlarla dostluq münasibətlərindən söhbət açıb.

Sonra, Ulu öndərin 100 illik yubileyinə həsr edilmiş "Böyük sənət hamisi" adlı sənədli film nümayiş olunub. Filmin layihə rəhbəri və baş prodüseri Namiq Hüseynovdur.

Qeyd edək ki, ekran işi Azərbaycan Diaspora Dəstək Fondunun dəstəyi ilə ərsəyə gəlib.

*XQ*

**İdman**

# Təhlükəsiz İdman Forumu

**Bakıda Milli Olimpiya Komitəsinin (MOK) təşkilatçılığı ilə II Təhlükəsiz İdman Forumu keçirilib.**



Əvvəlcə Azərbaycanda baş tutmuş ilk Təhlükəsiz İdman Forumundan bəhs edən videoçarx nümayiş etdirilib.

İdmanda daha təhlükəsiz mühitin yaradılması və idmançıların rifahının yaxşılaşdırılması məqsədilə keçirilən foruma onlayn formatda qoşulan Beynəlxalq Olimpiya Komitəsinin (IOC) Təhlükəsiz İdman şöbəsinin rəhbəri Kirsti Borrovs bu cür mötəbər tədbirin təşkilində MOK-un xüsusi fəallıq nümayiş etdirdiyini vurğulayıb. Təhlükəsiz idman sahəsində ölkəmizin lider olduğunu qeyd edən IOC nümayəndəsi bildirib ki, təkcə bu ilin oktyabr ayında Azərbaycanda bu mövzuda müxtəlif tədbirlər baş tutub. O, Beynəlxalq Olimpiya Komitəsinin bütün üzv ölkələrdə olduğu kimi, Azərbaycanda da təhlükəsiz idman mühitinin yaranmasında maraqlı olduğunu diqqətə çatdırıb.

Sonra Təhlükəsiz idman üzrə IOC-nin setifikatlaşdırılmış mütəxəssisi Vaqif Əliyev "Təhlükəsiz İdman Hamı Üçün", Azərbaycan Gimnastika Federasiyasının tibb və təhlükəsizlik üzrə meneceri Namiq Bədirxanov "Safeguarding (təhlükəsizlik) – İdmanda insan hüquqlarının qorunması", Azərbaycan Cüdo Federasiyasının təhsil meneceri Orxan Oruczadə "Elit idmançılar üçün psixoloji sağlamlıq xidmətlərinin rolu", UNICEF-in Azərbaycan nümayəndəliyi, Uşaqların müdafiəsi proqramının rəhbəri Vüqar Salmanov "Uşaqların zorakılıqdan müdafiəsi: UNICEF-in rolu və gələcəyə baxış", Monteneqro Milli Olimpiya Komitəsinin üzvü Maya Pekoviç isə "İdmanda təhlükəsizliyin prioritetləşdirilməsi" mövzusunda təqdimatlar ediblər.

# III minifutbol turniri



**Dövlət qurumları arasında ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş III minifutbol turnirinin açılış mərasimi keçirilib.**

Tennis Akademiyasında təşkil olunan tədbir iştirakçı komandaların təqdimatı ilə başlayıb.

Minifutbol Federasiyasının prezidenti Orxan Məmmədov çıxış edərək, Ulu öndərin xatirəsinə həsr olunmuş turnirin yüksək səviyyədə keçiriləcəyini deyib. AFFA-nın icraçı vitse-prezidenti Sərxan Hacıyev turnir iştirakçılarına uğurlar arzulayaraq, bundan əvvəlki yarışların çox böyük marağa səbəb olduğunu bildirib. Gənclər və İdman naziri Fərid Qayıbov turnirin təşkili üçün AFFA və Azərbaycan Minifutbol Federasiyasına təşəkkürünü bildirərək, hər il yarışların maraqlı və gərgin keçdiyini qeyd edib.

Daha sonra turnir açıq elan olunub. Yarışda Baş Prokurorluq və Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi Qapalı Səhmdar Cəmiyyətinin komandaları iştirak edib.

Qeyd edək ki, turnirdə 39 komanda iştirak edir.

*S. FİDAN*
*XQ*

**Hava**

## Bu gün də yağış, duman və külək...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, dekabrın 14-də Bakıda və Abşeron yarımadasında havanın arabir yağıntılı olacağı, yarımadanın bəzi yerlərində sulu qara keçəcəyi gözlənilir. Gündüz yağıntıda fasilə olacaq.**

Arabir güclənən şimal-qərb küləyi əsəcək, axşama doğru mülayimləşəcək. Gecə və gündüz 2-5° isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunundan 775 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 75-85 , gündüz 65-70 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var.

Gündüz qərb rayonlarından başlayaraq yağıntılar tədricən kəsiləcək. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 5-8° isti, dağlarda gecə 7-12°, gündüz 2-7° şaxta olacaq.



*Q.QASIMOV*
*XQ*

**Sağlamlıq**

## Reyhanın ağı da, qarası da...

**Ölkəmizdə reyhanın ağ (yaşıl) və qara (bənövşəyi) deyilən 2 növü mövcuddur. Reyhan zəngin antioksidant tərkibi və güclü bioloji xüsusiyyətləri ilə sağlamlıq üçün çox faydalıdır: Onun xərçəngə qarşı mübarizədə dəstəkçi rolu məlumdur.**



Tərkibindəki flavonoidlər, polifenollar və antosiyaninlər bədəndəki sərbəst radikalları zərərsizləşdirərək hüceyrə zədələnməsinin qarşısını alır. Xüsusilə, onun iltihab əleyhinə təsiri xərçəng hüceyrələrinin yaranma və yayılma riskini azaldır.

Reyhanın tərkibində olan maddələr bəzi xərçəng növlərinə qarşı qoruyucu təsir göstərə bilər. Məsələn, bağırsaq, dəri və döş xərçəngi kimi xəstəliklər buna aiddir. Antioksidant xüsusiyyətləri insanda immuniteti gücləndirir, bədəni toksinlərdən təmizləyir və sağlam hüceyrə funksiyalarını dəstəkləyir.

Reyhanı göyərti kimi yemək, salatlarda istifadə etmək, kompotunu hazırlayıb içmək də mümkündür. Amma ən məsləhətlisi onu başqa qatqısız və çiy yeməkdir.

*Z.HÜSEYNLİ*
*XQ*

# Körfəz ölkələrinin turizm şirkətləri Azərbaycanda



**Azərbaycan Turizm Bürosunun xətti ilə Səudiyyə Ərəbistanı, Qətər, Küveyt, Bəhreyn və Omandan olan 27 turizm agentliyinin nümayəndələri üçün tanışlıq səfəri təşkil edilib.**



Səfər müddətində Körfəz ölkələrinin turizm şirkətlərinin nümayəndələri Bakının turistik məkanları ilə yanaşı, "Şahdağ" Turizm Mərkəzini ziyarət edərək, ölkəmizin qış turizm imkanları və qış xizək mərkəzində təqdim olunan xidmətlərlə tanış olublar.

Səfər çərçivəsində, ikitərəfli əlaqələrin yaradılması və inkişaf etdirilməsinə dəstək məqsədilə 45-ə yaxın yerli şirkətlə B2B (biznesdən-biznesə) formatında görüşlər keçirilib.

Dövlət Turizm Agentliyinin məlumatına görə, 2024-cü ilin 11 ayı ərzində Yaxın Şərq ölkələrindən 244 min 511 nəfər ziyarətçi gəlib ki, bu da 2023-cü ilin eyni dövrü ilə müqayisədə 17 faiz artım deməkdir.

*Qəzənfər QASIMOV*
*XQ*


BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4001
SİFARİŞ 2854
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00